Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

15-17

FEVRAL 2020-ci il

№ 28 (4159)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

MERKEL İKİ İL ƏVVƏL PAŞİNYANA YÖNƏLİK QARABAĞLA BAGLI DEDIKLƏRINI «UNUTDUMU» - PAŞINYAN ALMANIYADA...

■ səh. 8 ■

Avropa mərkəzlərindən Azərbaycan üzərinə "səlibçi demokratiya yürüşü"nün idarə edildiyinə daha bir sübut - Avroparlamentin sosialistləri və demokratları...

■ səh. 7 ■

7 şübhəli əsgər ölümü Paşinyanı kütlə ilə üz-üzə qoyur...

■ səh. 9 ■

Şikayət edilən dairələr sivil araşdırılırsa, küçə-meydan aksiyaları nəyə xidmət edir...

■ səh. 6 ■

Ermənistanda yeni xam xəyal - "Dünya təşkilatları seçkiyə görə Qarabağı Azərbaycana qaytarmayacaq"

■ səh. 7 ■

Suriya əsədlərinin ikiüzlülüyü bu dəfə saxta "erməni genosidi"nə sevgi formasında qabardı...

■ səh. 8 ■

Azərbaycanlıların öz yurdlarından ermənilər tərəfindən zorakı deportasiya tarixləri...

■ səh. 11 ■

Çinin koronavirus bəlası Rusiyada Azərbaycan məhsullarına tələbi sürətlə artırır

■ səh. 13 ■

■ səh. 2 ■

Prezident İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransı çərçivəsində ikitərəfli görüşləri başladı

ATƏT-in 9 fevral seçkisinə qərəzli münasibətdə olduğu qurumun öz içindən ifşa olunur - «Attar hadisəsi»...

■ səh. 5 ■

Namizədlikləri ləğv olunan deputatların unikal «deputatlıq tarixi»...

■ səh. 10 ■

Gözlənilən Türkiyə-Suriya müharibəsinin ssenarisi açıqlandı - NATO, Rusiya və İran da savaşa qoşulacaq...

■ səh. 12 ■

■ səh. 4 ■

Baş Prokurorluğun illik fəaliyyəti - rezonans doğuran cinayətlər, işdən çıxarılan prokurorlar, rüşvət üstə həbs olunanlar...

■ səh. 3 ■

"Radikal qüvvələr şikayətlərin ədalətlə araşdırılmasında yox, xaos yaratmaqda maraqlıdır"

■ səh. 5 ■

Seçki günü Azərbaycanda bir jurnalistə zorakılıq edildimi - "Freedom House"un ağ yalanı...

■ səh. 6 ■

Səsləri saxtalaşdırılmış dairələrdə köhnə namizədlər yenidən namizədlik irəli sürə bilərmi...

■ səh. 14 ■

Akademiyanın Riyaziyyat və Mexanika İnstitutunun professoru Rəyasət Heyətini nələrdə günahlandırır...

Prezident İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransı çərçivəsində ikitərəfli görüşləri başladı

Fevralın 14-də Prezident İlham Əliyevin 56-cı Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına səfəri başlayıb. Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms və assosiasiyanın Cənubi Qafqaz ölkələri üzrə işçi qrupunun rəhbəri, "Veridos GmbH" şirkətinin baş icraçı katibi Andreas Reşmayerlə görüşüb.

Görüşdə Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı və şaxələndirilməsi istiqamətində görülən işlər barədə məlumat verilib. İqtisadiyyatın rəqəmsallaşdırılmasının və Davos Forumu ilə Azərbaycan arasında əldə edilmiş razılaşmaya əsasən Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılmasının əhəmiyyəti qeyd edilib.

Söhbət zamanı Azərbaycanın 2020-2024-cü illəri əhatə edən regionların inkişafı planından, ölkəmizdə sənayenin inkişafı istiqamətində görülən işlərdən bəhs edilib, bu prosesdə alman şirkətlərinin daha da fəal iştirak etməsinin əhəmiyyəti vurğulanıb.

Həmçinin ölkəmizdə xarici investorlar üçün cəlbedici sərmayə mühitinin olduğu diqqətə çatdırılıb. Eyni zamanda, Azərbaycanın Şimal-Qərb, Şimal-Cənub və Şərq-Qərb istiqamətləri üzrə nəqliyyat dəhlizlərindəki əsas rolundan bəhs olunub, Azərbaycanın öz coğrafi yerləşmə potensialını fürsətlərə çevirdiyi bildirilib.

Görüşdə Azərbaycan və Almaniya biznes dairələrini bir araya gətirən biznes forumların keçirilməsinin vacibliyi vurğulanıb, Azərbaycanda peşə təhsili sahəsində Almaniya ilə birlikdə əməkdaşlığın önəmi qeyd olunub.

Prezident İlham Əliyev fevralın 14-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norovla da görüşüb.

Baş katibi salamlayan Prezident İlham Əliyev deyib ki, artıq Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında dialoq üzrə tərəfdaş statusuna malikdir:"Təşkilata dialoq üzrə tərəfdaş qismində qoşulmağımız da əməkdaşlığa verdiyimiz əhəmiyyəti təsdiqləyir.

Şanxay Əməkdaşlıq Təşkilatının bütün üzv ölkələri ilə yaxşı, yaxın, mehriban qonşuluq münasibətlərimiz var. Biz birlikdə ikitərəfli, bəzən üçtərəfli formatda nəqliyyat, energetika, infrastrukturla bağlı çoxlu mühüm layihələri reallaşdırırıq".

Aprelin 21-də Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin inkişafı məsələləri üzrə konfransının keçirilməsi ilə bağlı Azərbaycanın təşəbbüsünü vaxtında atılmış mühüm addım adlandıran Norov bildirib ki, üzv ölkələrin əksəriyyəti artıq bu təşəbbüsü dəstəkləyir:"Düşünürəm ki, bu konfrans nəqliyyat sahəsində müvafiq qurumlar arasında sıx əlaqələrin qurulması və əməkdaşlıq məsələlərinin müzakirəsi üçün vacib meydança olacaq.

Görüşdə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatındakı fəal tərəfdaşlıq üzrə dialoq statusunda rolu xüsusi qeyd olunub. Azərbaycanla Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq çərçivəsində bu il nəqliyyat məsələlərinə həsr olunacaq konfransın keçiriləcəyi bildirilib.

Söhbət zamanı Azərbaycanda keçirilən seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün Şanxay Əməkdaşlıq Təşkilatına göndərilən dəvət yüksək qiymətləndirilib və təşkilatın da geniş tərkibli nümayəndə heyəti ilə bu seçkilərdə iştirak etdiyi, seçkilərin azad, ədalətli, demokratik şəkildə keçirildiyi diqqətə çatdırılıb. Həmçinin Azərbaycanda əhatəli islahatların həyata keçirildiyi qeyd edilib.

Görüşdə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyi, təşkilatın bütün üzv ölkələri ilə yaxşı münasibətlərə malik olduğu vurğulanıb.

Daha sonra Prezident İlham Əliyev Münhendə Küveyt Dövlətinin Baş naziri Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşüb.

Görüşdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi yüksək qiymətləndirilib və bu çərçivədə ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanların olduğu bildirilib.

Söhbət zamanı Azərbaycanla Küveyt arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinin və hökumətlərarası komissiyanın daha da fəallaşdırılmasının vacibliyi qeyd olunub.

Görüşdə ölkələrimiz arasında turizm sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə edilərək, Küveytdən Azərbaycana gələn turistlərin sayında əsaslı artımın müşahidə olunduğu vurğulanıb, tezliklə Küveyt Hava Yollarının Azərbaycana uçuşlar həyata keçirəcəyi diqqətə çatdırılıb.

Söhbət zamanı, həmçinin, ölkələrimizin OPEC+ çərçivəsində səmərəli əməkdaşlıq etdikləri bildirilib.

Prezident İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransı çərçivəsində daha bir görüşü Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurerlə olub.

Görüşdə dövlət başçısı Ermənistan tərəfindən girovluqda saxlanılan azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunmasının, bu istiqamətdə səylərin artırılmasının vacibliyini qeyd edib. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində humanitar əsaslarda "hamının hamıya" prinsipi ilə bütün əsir və girovların dəyişdirilməsinin vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev fevralın 14-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masada iştirak və çıxış edib.

Aydın Quliyev: "Radikal qüvvələr şikayətlərin ədalətlə araşdırılmasında yox, xaos yaratmaqda maraqlıdır"

Hələlik dörd seçki dairəsində nəticələrin ləğv edilməsi rəsmi qurumların konkret şikayətlərə laqeyd qalmadığını və səsvermə prosesində yol verilmiş pozuntuların qanuni araşdırılma mexanizminin işlədiyini aydın göstərir. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, iştirak etmiş namizədlərin və bütünlükdə seçki ictimaiyyətinin pozuntu hallarının araşdırılacağı barədə şəxsən dövlət başçısından eşitdiyi mesajlardan doğru nəticə çıxardığı göz qabağındadır: "Prezident və MSK-nın bütün müraciətlərin qanuni formada araşdırılması üçün iradə nümayiş etdirməsi çox əhəmiyyətlidir və seçki prosesində yeni mütərəqqi istiqamətlər açmaq gücündədir. Şikayətlər əsasında konkret dairələrdə seçki nəticələrinin araşdırılması və müvafiq qərarların qəbul edilməsi sivil prosesdir və seçki ilə bağlı olan bütün sivil siyasi qüvvələrin mənafelərinə cavab verir. Bəzi seçki nəticələrinin qanuni araşdırılması ictimaiyyətin maraqlarını tam ifadə edir, Azərbaycanda hər hansı kənar təzyiqlərə yox, yalnız xalqın iradəsinə tam uyğun başladılmış proses kimi təzahür edir, Prezidentin hər bir vətəndaşın hüquqlarına təminatçı olduğu barədə Konstitusiya normalarının icra edildiyini göstərir və xalqın nəzərində seçki prosesinin legitimliyinin daha da möhkəmləndirilməsi məqsədinə xidmət edir. Seçki nəticələrinin obyektiv və ədalətlə araşdırılması bütün siyasi proseslərin ən ali ölçü meyarı sayılan xalqın ümumi etimad məsələsinə söykənir".

Ekspert bildirib ki, 9 fevral səsverməsindən sonra təkrar araşdırmalar formasında xalqın etimadına və tam legitimlik prinsipinə söykənən prosesin başlandığı göz qabağındadır və onun cəmiyyətin qənaətbəxş hesab etdiyi həddə qədər davam etdiriləcəyi şübhəsizdir:"Prezidentin bütün müqəssirlərin cəzalandırılacağı barədə Kürdəmirdə səsləndirdiyi bəyanat seçki nəticələrinə dair araşdırmaların yarımçıq qalmayacağına etibarlı təminat sayıla bilər.

Pozuntu və qanunsuzluq hallarının araşdırılması ilə eyni vaxtda radikal dairələrin rəsmi orqanlara güc vasitələri ilə təzyiqlər göstərmək taktikası məntiqsizlikdir, ziyanlıdır və lüzumsuzdur. Radikal qüvvələrin seçki ilə bağlı mitinqlər keçirmək səyləri cəmiyyətin gözləntilərinə uyğun deyil. Radikal mitinqlər seçkisonrası mübahisələrin gərəkli həll üsulu deyil. Cəmiyyət bəzi dairələr üzrə seçki mübahisələrinin həllində küçə-meydan aksiyalarına yox, rəsmi orqanların qanuni araşdırmalarına daha çox etimad göstərir. Mübahisələrin həlli üsulu kimi insanlar radikal ittihamçı mitinqlərə heç bir etimad göstərmədiyi üçün belə aksiyaların uğur şansı yoxdur. Seçkisonrası küçə aksiyaları, hətta rəsmi razılıq verildiyi halda belə, cəmiyyət tərəfindən əhəmiyyətli dəstək almaq imkanında olmadığı üçün uğursuzluğa məhkumdur".

Baş redaktor bildirib ki, seçkidən sonra kütləvi aksiyalar keçirməyə cəhd edənlər şikayətlərin sonadək ədalətlə araşdırılmasında yox, xaos yaratmaqda maraqlıdır:"Xalq seçkidən sonra mitinq keçirmək istəyənlərin əsl hədəflərinin sabitliyi pozmaqla bağlı olduğunu həm keçmiş daxili, həm də beynəlxalq təcrübədən yaxşı bilir".

Əli Əhmədov: "Bir neçə nəfərin qanunsuz aksiya keçirmək cəhdi beynəlxalq təşkilatların seçki ilə bağlı rəyini dəyişə bilməz"

Azərbaycanda fevralın 9-da keçirilən parlament seçkiləri radikal müxalifəti ciddi şəkildə sarsıtdı. Bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov "Trend"ə deyib.

Ə.Əhmədov bildirib ki, radikal müxalifət partiyaları seçkilərdə iştirak etməkdən imtina etdilər və guya öz aləmlərində bunu boykot kimi xarakterizə etməyə çalışdılar:"Amma əsl həqiqət bundan ibarətdir ki, Azərbaycan cəmiyyətində hər hansı bir dəstəyinin olmadığını onların özləri də dərk edirlər və təbii ki, ictimai dəstək olmadığı halda seçkilərdə iştirak etmək real nəticə verməyəcək. Belə olan halda radikalçılar Azərbaycanda seçkilərə qara yaxmaqdan başqa bir yol seçə bilmədilər. Əlbətə ki, bu, artıq onların ənənələrinə çevrilib.

Çünki bütövlükdə Azərbaycana qara yaxmaq, ölkəmizlə bağlı beynəlxalq təşkilatlarda fərqli bir təsəvvür yaratmaq üçün istənilən bir bəhanə axtarmağa çalışırlar. Onlar, eləcə də seçki kampaniyasına və onun artıq elan olunan nəticələrinə kölgə salmağa çalışırlar.

Radikal müxalifət çox az sayda adamları küçəyə çıxarmaqla, onları müxtəlif yollarla təhrik etməklə və yaxud hansısa formada həvəsləndirməklə seçkinin nəticələrinə, guya ki, ciddi etiraz olduğu görüntüsü yaratmağa çalışırlar. Ancaq nə yaxşı ki, beynəlxalq təşkilatların bəzi nümayəndələri hələ də Azərbaycandadır və onlar öz gözləri ilə görürlər ki, Azərbaycanda seçkinin nəticələrinə cəmiyyətdə tamamilə normal, adekvat bir münasibət mövcuddur, ona görə ki, vətəndaşlar istədikləri namizədlərə səs veriblər".

Ə.Əhmədov vurğulayıb ki, bir neçə nəfərin çox çirkli və şübhəli məqsədlərlə seçkinin nəticələrinə qarşı kampaniya təşkil etməsi, qanunsuz aksiya keçirməyə cəhdləri Azərbaycanda keçirilən seçki ilə əlaqədar beynəlxalq təşkilatların rəyini dəyişdirə bilməz: "5-10 nəfər təbii ki, 10 milyonluq Azərbaycan vətəndaşlarının iradəsinin ifadəsini öz boyunlarına götürə bilməzlər. Bu seçkilər növbədi dəfə Azərbaycanda radikal müxalifətə çox sarsıdıcı bir zərbə vurdu. Bu zərbənin birinci ifadəsini mən onda görürəm ki, cəmiyyətimiz çox qəti şəkildə bildirmək istəyir ki, Azərbaycanın siyasi həyatında və bütövlükdə Azərbaycan cəmiyyətində radikalizmə yer yoxdur. Vətəndaşlarımız nə siyasətdə, nə də ictimai həyatımızda radikalçıların olmasını istəyirlər və onlara qarşı özlərinin mövqeyini növbəti dəfə bu seçkilərdə ifadə etdilər.

İkinci çox mühüm cəhət ondan ibarətdir ki, radikal mövqedə duran müxalifət və onların həyata keçirmək istədikləri "siyasət" insanlarımız tərəfindən dəstəklənmir və vaxtilə Azərbaycanda hakimiyyətdə olan, ölkəni böhrana salan, çox çətin durumla üz-üzə qoyan, həmin o müxalifətin bu gün Azərbaycan cəmiyyətində insanların dəstəyinə ümid bəsləmələri tamamilə mənasız xülyadan başqa bir şey deyil. Cəmiyyətimiz açıq şəkildə onlara bildirmək istəyir ki, Azərbaycan vətəndaşları Azərbaycan iqtidarından və Prezident İlham Əliyevdən, həyata keçirilən siyasətdən məmnundurlar.

İnsanlarımız Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın bundan sonra da inkişafına inanırlar və təbiidir ki, bu inam da bu seçkilərdə bir daha özünü göstərdi. Belə olan halda radikal müxalifət partiyalarının çox şübhəli davranışlarla Azərbaycan cəmiyyətini çaşdırmağa çalışması, əlbəttə ki, radikal müxalifətçilərə hər hansı bir uğur gətirməyəcək".

Baş Prokurorluğun illik fəaliyyəti - rezonans doğuran cinayətlər, işdən çıxarılan prokurorlar, rüşvət üstə həbs olunanlar...

Fevralın 14-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2019-cu ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.

İclasda hesabat məruzəsi ilə çıxış edən Baş prokuror Zakir Qaralov bildirib ki, dövlətin həyata keçirdiyi sosial-yönümlü siyasətin prioritetlərinə uyğun olaraq, əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılıb.

Qeyd edilib ki, hesabat dövründə prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi təmin edilib.

2019-cu ildə, bütövlükdə, prokurorluq orqanlarına 81 min, o cümlədən, Baş Prokurorluğa 65 min ərizə və şikayət daxil olmaqla, onlardan 42 mininin müvafiq qaydada həlli, eləcə də 9 min müraciət üzrə vətəndaşların qaldırdığı məsələlər təmin olunub. Prokurorluq orqanlarında 26 mindən çox, o cümlədən, Baş Prokurorluqda 2 minə yaxın vətəndaş qəbul edilib. Prokurorluğun əlaqədar qurumlarından tələb edilib ki, müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində əməkdaşların məsuliyyətinin artırılması, yeni informasiya texnologiyalarının imkanlarından daha geniş istifadə olunması təmin edilməli, müraciətlərə formal yanaşılmamalı, eləcə də qəbula gələn hər bir vətəndaşın müraciətinə həssaslıq və məsuliyyətlə yanaşılmaqla biganə münasibət göstərilməməli, onların müsbət həlli istiqamətində səlahiyyətləri daxilində bütün mümkün imkanlardan istifadə edilməlidir. Xüsusi vurğulanıb ki, dövlət başçısının tapşırıq və tövsiyələrinə müvafiq olaraq, Baş prokuror tərəfindən respublikanın 12 bölgəsində prokurorluğun rəhbər işçilərinin iştirakı ilə 282 vətəndaş qəbul edilməklə, qaldırılan məsələlərin yerində həlli və əsaslı müraciətlərin təmin olunması istiqamətində hərtərəfli tədbirlər həyata keçirilib.

Hesabat dövründə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən yüksək göstəricilərə nail olunmaqla rüşvətlə bağlı, vəzifə səlahiyyətlərini aşma, vəzifə saxtakarlığı, vəzifədən sui-istifadə və s. faktlar üzrə 497 vəzifəli şəxs barəsində 310 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib, həmin işlər üzrə 83.8 milyon manat məbləğində maddi ziyandan ibtidai araşdırma mərhələsində 21.8 milyon manatın ödətdirilməsi təmin edilib, həmçinin, qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə 40.3 milyon manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulmaqla, ümumilikdə, vurulmuş maddi ziyanın 74.7 %-nin ödətdirilməsi təmin edilib.

Hesabat ilində Baş İdarə tərəfindən qida təhlükəsizliyi, tikinti və şəhərsalma tələblərinin pozulması, vətəndaşlara qarşı dələduzluq etmiş mənzil-tikinti kooperativlərinin rəhbərləri barədə, həmçinin, bank sektorunda yol verilmiş qanunsuzluqlarla əlaqədar bir sıra aktual cinayət işləri üzrə intensiv istintaq tədbirləri davam etdirilib.

Eyni zamanda, ölkə Prezidenti tərəfindən hər zaman diqqət mərkəzində saxlanan və 3 fevral 2020-ci il tarixdə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda bir daha iqtisadiyyatın ayrı-ayrı sektorlarında mövcud olmaqla azad sahibkarlıq mühitində rəqabətliliyə neqativ təsir edən kölgə iqtisadiyyatı, o cümlədən də qara mühasibatlıqdan istifadə edərək dövlət nəzarətindən və qeydiyyatından gizli şəkildə qanunsuz fəaliyyət göstərən sahibkarlıq subyektlərinə qarşı effektiv mübarizə tədbirlərinin gücləndirilməsi barədə verilmiş göstərişlər nəzərə alınaraq, Baş prokuror tərəfindən Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə İqtisadiyyat Nazirliyi və müvafiq dövlət qurumları ilə əlaqəli şəkildə beynəlxalq təcrübə öyrənilməklə təkliflərin hazırlanması və qabaqlayıcı tədbirlərin görülməsi tapşırılıb.

Hesabat dövründə ölkəmizdə həyata keçirilən anti-korrupsiya islahatlarının nəticələrinin "Beynəlxalq Şəffaflıq" Təşkilatının (Transparency International) tərtib etdiyi illik hesabatlarda öz əksini tapmaqla təşkilatın 2019-cu ilin nəticələri üzrə dərc etdiyi Korrupsiya Qavrama İndeksində Azərbaycanın 2018-ci illə müqayisədə 26 pillə irəliləməsi xüsusi vurğulanıb. Xüsusi qeyd edilib ki, müasir dünya təcrübəsinin ölkəmizdə geniş tətbiqi nəticəsində idarəçilik sistemində, o cümlədən, vergi və gömrük sahələrində aparılan islahatların dövlət büdcəsinə daxilolmaları böyük həcmdə artırması, həmçinin, dövlət və özəl xidmətlərin vahid məkanda operativlik, şəffaflıq, nəzakətlilik və məsuliyyət prinsiplərinə uyğun göstərilməsi yönündə formalaşdırılmış "ASAN xidmət" mərkəzlərinin fəaliyyət coğrafiyasının daha da genişləndirilərək 17 mərkəzə çatdırılması, yarandığı gündən keçən qısa müddət ərzində 35 milyondan çox müraciətin daxil olması, habelə əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 132 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən nadir layihə kimi "DOST" mərkəzlərinin fəaliyyətə başlaması ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətlərin bariz nümunəsidir.

Zakir Qaralov bildirib ki, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin əməkdaşları tərəfindən bir sıra xüsusilə ağır və ağır cinayətlərin, habelə böyük ictimai rezonans doğuran hadisələrin, o cümlədən, Gəncə şəhərində 2 polis zabitinin qəsdən öldürülməsi, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı törədilmiş terror hadisəsi, "Diqlas" Ticarət Mərkəzində baş vermiş yanğın hadisəsi və s. cinayət işlərinin yüksək peşəkarlıqla istintaq olunması, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilmələri təmin olunub. Hesabat dövründə idarənin əməkdaşları tərəfindən 123 şəxs barəsində 54 cinayət işi üzrə istintaq tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. İstintaq edilən və məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vətəndaşlara və dövlətə dəymiş 127 milyon manat məbləğində ziyandan 122 milyon manatın və ya 96%-nin ödətdirilməsi təmin olunub.

2019-cu ildə xidməti, icra və əmək intizamının pozuntusu hallarına qarşı, işində və xidmətdənkənar fəaliyyətində qanunsuzluqlara münasibətdə prinsipial mübarizə xəttinin davam etdirildiyini deyən Z.Qaralov müxtəlif pozuntulara yol verdiklərinə görə 54 əməkdaşın intizam məsuliyyətinə cəlb olunduğunu, onlardan 44 nəfərə töhmət və şiddətli töhmət elan edildiyini, 8 əməkdaşın tutduğu vəzifədən azad edildiyini, prokurorluqda xidmətlə bir araya sığmayan kobud qanunsuzluqlara yol verdiklərinə görə 2 əməkdaşın prokurorluq orqanlarından xaric edildiyini diqqətə çatdırıb.

Xidməti, icra və əmək intizamının daim diqqət mərkəzində saxlandığını bildirən Baş prokuror mənfi təzahürlərə, qeyri-prosessual münasibətlərə, vəzifə səlahiyyətlərindən sui-istifadə edərək neqativ hallara, qanun pozuntusu və nöqsanlara, prokuror vəzifəsi ilə bir araya sığmayan hərəkətlərə yol verən prokurorluq işçiləri barəsində ciddi cəza tədbirlərinin görüləcəyini bildirib.

2019-cu ili Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü adlandıran natiq qeyd edib ki, ötən il digər hüquq-mühafizə orqanları, ilk növbədə, daxili işlər, dövlət təhlükəsizlik, ədliyyə və məhkəmə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunub.

Daxili İşlər Nazirliyi ilə əlaqəli şəkildə həyata keçirilən peşəkar istintaq və əməliyyat-axtarış tədbirlərinin nəticəsi olaraq, ictimai əks-səda doğurmaqla cəmiyyətin maraq dairəsində olan, keçmiş illərdə törədilməklə uzun müddət ərzində bağlı qalan bir sıra xüsusilə ağır və ağır cinayətlərin açılması və cəzanın labüdlüyünün təmin olunduğu konkret misallarla diqqətə çatdırılıb.

Hesabat dövründə kriminogen durumun nəzarətdə saxlandığını qeyd edən Baş prokuror Zakir Qaralov əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayının sabit qalaraq 265 fakt təşkil etdiyini və ölkəmizin ötən il də MDB və Avropa məkanında ən təhlükəsiz və sabit dövlətlərdən biri kimi öncül mövqeyini saxladığını xüsusi vurğulayıb. Kollegiya iclasında bildirilib ki, daxili işlər və digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsi olaraq cinayətkarlığın dinamikasında və strukturunda müşahidə olunan ötən illərin müsbət göstəriciləri 2019-cu ildə də davam etdirilib, prokurorluğun dövlət maraqlarının müdafiəsi və cinayətkarlığa qarşı effektiv mübarizənin təşkili istiqamətində fəaliyyəti daha da gücləndirilib. Hesabat ilində istintaq və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən dövlət orqanları üzrə 26.672 cinayət qeydə alınıb. Bu cinayətlərin 92 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olmuş, cinayətlərin 89 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

Hesabat ilində qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılması, bu cinayətləri törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində müəyyən işlər görülüb. Qeydə alınmış həmin cinayətlərin sayı əvvəlki illə müqayisədə azalıb, açılma faizi 96,1% olmaqla sabit qalıb. 2018-ci illə müqayisədə hesabat dövründə qeydə alınmış yol-nəqliyyat hadisələrinin sayı 53 fakt, həmin hadisələrdə ölən şəxslərin sayı 99 nəfər artıb, xəsarət alan şəxslərin sayı isə 9 nəfər azalıb. Ölümlə nəticələnən yol-nəqliyyat hadisələrindən 6-sı açılmamış qalıb.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və tabe prokurorlara 2019-cu ildə və əvvəlki illərdə törədilməklə bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin, ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin açılması üçün zəruri tədbirlərin görülməsi, daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə konkret hadisələr üzrə istintaq və əməliyyat-axtarış işlərinin real vəziyyətinin öyrənilməsi yolu ilə onların intensivliyinin artırılması, səlahiyyət dairəsində olan bütün imkanlardan istifadə olunmaqla təqsirkar şəxslərin müəyyən olunmasının təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Kollegiya iclasında sahibkarlıq subyektlərinin fəaliyyətinə əsassız müdaxilələrə yol verilməməsi diqqətə çatdırılmaqla, sahibkarlar arasında yaranmış mülki xarakterli mübahisələrə dair prokurorluq orqanlarına daxil olmuş şikayətlər üzrə mülki qaydada məhkəmə orqanlarına müraciət etmələri barədə izahların verilməsi prokurorluq əməkdaşlarından ciddi tələb edilib.

ATƏT-in 9 fevral seçkisinə qərəzli münasibətdə olduğu qurumun öz içindən ifşa olunur - "Attar hadisəsi"...

***Rauf Zeyni:** "Tanınmış bir professora qarşı atılan bu addım onların niyyətinin nə dərəcədə məkrli olduğunu ortaya qoydu"*

Daim yüksək demokratik dəyərlərdən danışan Avropanın bəzi qurumlarının özlərinin atdıqları addımlar adamı dərindən təəccübləndirir. ATƏT əslən azərbaycanlı olan Aygün Attar adlı xanımın akkreditasiyasının ləğvi ilə bağlı MSK qarşısında məsələ qaldırıb. Aygün xanım onunla bağlı yaşananları belə izah edib:

"İkinci dəfə müstəqillik əldə etdiyi tarixin üstündən hələ 30 il keçməsə də, müsbət inkişafların görməzlikdən gəlinərək yalnız neqativliyin önə çıxarılması Azərbaycan adına da, vətəndaşı olduğum Türkiyə adına da məni çox üzdü.

Bu sətrləri yazdığım zaman seçkilər hələ bitməyib və seçkiləri izləyən ATƏT-in seçki müşahidə komitəsinin hesabatı açıqlanmayıb. Ancaq şəxsən hesab edirəm ki, hesabat mənfi olacaq, çünki qərəzlilik obyektivliyə zərər verəcək. ATƏT-in hazırladığı hesabatın hüquqi sanksiyası yoxdur, lakin hesabat Azərbaycanla ATƏT-ə üzv ölkələr arasındakı münasibətlər üçün vacibdir. Sizə məsləhətim budur ki, Azərbaycanda neft və təbii qazdan başqa xoşniyyətli insan enerjisini vurğulayan diskussiyalara üstünlük verin və bu fəaliyyətlərə dəstək olun. Ölkədə gedən seçki prosesinə hörmətlə yanaşmaq Azərbaycanın dəvətilə keçirilən seçkilərdə müşahidə aparmış bütün xarici müşahidəçilərin qanuni borcudur".

Məhz bu yanaşmadan sonra ATƏT deyilən addımı atıb. Qeyd edək ki, ATƏT müşahidəçilərindən olan professor, tarixçi Aygün Attar uzun illər Türkiyənin Girəsun Universitetinin rektoru vəzifəsində çalışıb. 2014-cü ildə Oksford Universitetinin Sokrat mükafatına layiq görülən tarixçi, həmçinin, Azərbaycan tarixi və mədəniyyətinin təbliği istiqamətində fəaliyyət göstərib. Belə ki, o, ermənilərin Azərbaycan və Anadolu türklərinə qarşı törətdiyi soyqırımlara həsr olunmuş bir çox məqalənin müəllifidir.

3-12 fevral tarixlərində ATƏT-də beynəlxalq müşahidəçi kimi ölkəmizdə səfərdə olub.

Aygün xanım bildirib ki, fevralın 11-də müşahidəçilərin sonuncu toplantısında ATƏT-dən iki nəfər ona müşahidəçi kimi akkreditasiyasının ləğv olunduğunu söyləyiblər: "Bunun səbəbini soruşdum. Soruşdum ki, beynəlxalq müşahidəçi kimi obyektivlikdən kənar bir hərəkətimmi olub? Dedilər ki, yox. Səbəb fevralın 8-də etdiyim müraciətdir. Mən isə ATƏT-in ölkələrdə fikir, mətbuat azadlığı, demokratiyanın təsis olunması üçün təsis edildiyini xatırlatdım. Dedim ki, necə olur ki, ATƏT özü kiçik bir tənqidə belə dözmür, amma başqa ölkələri tənqid edir, guya dərs verir? Onlar da mənim akkreditasiyamın ləğv olunması üçün MSK-ya müraciət etdilər. Məsələnin mahiyyəti budur".

Demokratiyadan danışan bir qurumun atdığı bu addımı necə dəyərləndirmək olar?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hadisənin özü çox narahatedicidir: "Ədalətsiz olan bu addımı ancaq pisləmək olar. Dünyanın bütün ölkələrində guya demokratik proseslərin qoruyucusu kimi çıxış edən bir təşkilat tərəfindən atılan bu addım görünən tərəflərə görə ziddir. Ancaq görünməyən tərəfləri bizə məlumdur.

Bu cür təşkilatlar üçün seçki monitorinqi bir bəhanə olur. Başlıca məqsəd ölkələrə siyasi təzyiqdir. Aygün xanıma qarşı qərəzli davranan bu təşkilat Azərbaycana münasibətdə heç vaxt obyektiv olmayıb. Tanınmış bir professora qarşı atılan bu addım onların niyyətinin nə dərəcədə məkrli olduğunu ortaya qoydu. Onsuz da həmin təşkilatın mahiyyəti bizə bəlli idi. Ancaq dünya şöhrətli professora qarşı həqiqəti söylədiyinə görə atılan addım onların özünü biabır etdi. Mən bu prinsipial mövqeyinə görə Aygün xanıma dərin təşəkkürümü bildirirəm. Həm də ona görə sağ ol deyirəm ki, qərəzli qüvvələrin əsl üzünü açıb ortaya qoydu. Bir sözlə, ATƏT-i öz içindən ifşa etdi".

Məhəmmədəli QƏRİBLİ

Seçki günü Azərbaycanda bir jurnalistə zorakılıq edildimi - "Freedom House"un ağ yalanı...

***Yadigar Məmmədli:** "Jurnalistlərə öz peşə fəaliyyətini həyata keçirməklə bağlı fiziki zor tətbiq edilsəydi..."*

Bəlli olduğu kimi, hər dəfə Azərbaycanda keçirilən seçkiləri ənənəvi olaraq bəzi təşkilatlar tənqid edirlər. Bütün vasitələrlə seçkini ancaq boz rəngdə təqdim edirlər. Bütün müsbət tərəfləri görməzdən gəlirlər. Bu dəfə də bəzi təşkilatlar belə mövqedən çıxış etdilər.

Bu arada "Freedom House" və " Sərhədsiz Reportyorlar" (RSF) təşkilatı bildirib ki, guya seçki günü KİV işçiləri fiziki zorakılığa məruz qalıblar. Guya Azərbaycan hakimiyyəti jurnalist plüralizmini məhv edir. Hakimiyyət bu zorakılıqda günahkar olanları məsuliyyətə cəlb etməlidir. Bakıda Mərkəzi Seçki Komissiyasının qarşısında oturaq aksiya keçirən deputatlığa namizədləri guya zorla dağıdıblar, bəzi jurnalistlər qaça bilib, lakin onlardan xeylisi saxlanıb və döyülüb. Guya yeddi qadın jurnalist polis tərəfindən döyülüb, onların kameraları və telefonları götürülüb, seçki günü jurnalistlərə ən azı səkkiz hücum faktı qeydə alınıb.

Göründüyü kimi, qərəz və yalan ortadadır. Məgər seçki günü və ondan sonra KİV təmsilçiləri fiziki zorakılığa məruz qalıblar? Belədirsə, onda necə olur ki, bunu heç kəs görmür? Həqiqətən də media təmsilçilərinə qarşı fiziki zorakılıq tətbiq edilsəydi, o zaman bunu gizlətmək mümkün olmazdı. Açıq-aydın görünür ki, bir sıra təşkilatlar məqsədli şəkildə belə yalan informasiyalar uydururlar. Məqsəd Azərbaycanda media azadlığının olmadığı barədə saxta rəy yaratmaqdır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Demokratik Jurnalistlər Liqasının rəhbəri Yadigar Məmmədlinin sözlərinə görə, bu, məlum təşkilatların Azərbaycana yönəlik növbəti qərəzli münasibətidir: "Seçki ilə bağlı çoxsaylı məlumat həm sosial şəbəkələrdə, həm də media orqanlarında yayılıb. Doğrudan da, deyildiyi kimi, jurnalistlərə öz peşə fəaliyyətini həyata keçirməklə bağlı maneələr olsaydı, onlara fiziki zor tətbiq edilsəydi, o zaman bununla əlaqədar ortada sübutlar olardı. Nəzərə almaq lazımdır ki, internet saytlarında, sosial şəbəkələrdə çoxsaylı material yerləşdirilib. Telekanallar seçki prosesinə geniş yer verib. Bütün bunlar onu göstərir ki, deyilənlər reallığı əks etdirmir. Səslənən fikirlər həqiqətə uyğun deyil. Bu, sadəcə, həmin təşkilatların Azərbaycana qarşı qərəzli münasibətindən doğan yanaşmadır. Nə qədər müsbət meyllər olsa da, yenə də öz amplualarındadırlar. Əslində, baş verən hadisəni yox, öz arzuladıqlarını hər zaman büruzə verirlər. Bu da təəssüf doğurur. Hesab edirəm ki, sözügedən fikirlər həqiqəti əks etdirmir".

"Bu, sadəcə, həmin təşkilatların Azərbaycana qarşı qərəzli münasibətindən doğan yanaşmadır"

Vidadi ORDAHALLI

Şikayət edilən dairələr sivil araşdırılırsa, küçə-meydan aksiyaları nəyə xidmət edir...

Məlum olduğu kimi, MSK tərəfindən bir neçə seçki dairəsində seçkilərin nəticələri ləğv edilib. 4 dairədə nəticələrin ləğv edilməsindən sonra bəzi deputatlığa namizədlər "etirazçı" obrazında meydana çıxıblar və onlar namizədliklərini verdikləri dairənin də nəticələrinin ləğv edilməsini tələb edirlər.

"Radikalların, eləcə də onlar kimi şou xatirinə aksiya keçirməyə cəhd göstərənlərin davranışlarında heç bir məntiq görmürəm"

Hətta müəyyən deputatlığa namizədlər bununla bağlı MSK-nın qarşısında aksiyalar keçirməyə də cəhd göstərirlər. Bundan əlavə, radikal müxalifət də fevralın 16-da aksiya keçirməklə bağlı iddia ortaya qoyub.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev Kürdəmirdə səfərdə olarkən seçkinin nəticələri ilə bağlı narazılıqların araşdırılacağını, günahkarların cəzalandırılacağını bildirib. Bu o deməkdir ki, seçki prosesində müəyyən dairələrdə baş verən qanun pozuntusuna göz yumulmayacaq və buna rəvac verənlər cəzasını alacaq, ədalət öz yerini tutacaq. Açıq görünür ki, dövlət başçısı da, hökumət də bu məsələdə baş verən neqativ halların aradan qaldırılmasında maraqlıdır.

Bu halda, bəzi namizədlərin, eləcə də radikal müxalifətin kütləvi aksiya keçirmək istəyi, cəhdi nə dərəcədə məntiqlidir?

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, bəzi deputatlığa namizədlərin aksiya keçirməyə cəhd göstərməsi və radikal müxalifətin aksiya keçirmək niyyəti şoudan başqa bir şey deyil: "Bəzi namizədlərin və radikal müxalifətin aksiya keçirmək istəyi şoudan başqa bir şey deyil, onlar növbəti dəfə şou yaratmaq istəyirlər. Bilirsiniz ki, artıq 4 seçki dairəsinin nəticələri ləğv edilib. Cənab Prezident də qeyd edib ki, seçki prosesində baş verən bütün narazılıqlar, şikayətlər araşdırılacaq və neqativ hallara yol verənlər cəzalandırılacaq. Ortaya kifayət qədər iradə qoyulub və dövlət özü bu sahədə baş verən neqativ halların araşdırılmasına, günahkarların üzə çıxarılıb cəzalandırılmasına maraq göstərir. 1500 nəfər deputatlığa namizədin hamısı deputat ola bilməz ki? Deputatlığa namizədlərin hamısı "seçkini mən udmuşam" iddiasını irəli sürür. Bu da çox məntiqsiz və ədalətsiz yanaşmadır. 125 yerə 1500 nəfərin yerləşdirilməsi mümkün deyil. Seçkidə qalib olanlar bəllidir, qüsurlara yol verilən dairələr də məlumdur. Onların da nəticələrinin ləğv olunmasına dair qərar var. Seçkidə yol verilən qüsurların tam olaraq araşdırılması üçün ortada siyasi iradə mövcuddur.

***Vüqar Rəhimzadə:** "Ortada siyasi iradə olduğu halda, radikalların, eləcə də bəzi deputatlığa namizədlərin nə istədiyi məlum deyil"*

Ortada siyasi iradə olduğu halda, radikalların, eləcə də bəzi deputatlığa namizədlərin nə istədiyi məlum deyil. Radikalların məqsədi yalnız ara qatmaq, sabitliyi pozmaq və bəzi havadarlarının sifarişini yerinə yetirməkdən ibarətdir. Radikalların, eləcə də onlar kimi şou xatirinə aksiya keçirməyə cəhd göstərənlərin davranışlarında heç bir məntiq görmürəm".

V.Rəhimzadə qeyd etdi ki, bəzi deputatlığa namizədlərin və radikal müxalifət qüvvələrinin qanunu pozmaq cəhdləri yolverilməzdir və bütün vətəndaşlar qanun qarşısında bərabərdir. Onun sözlərinə görə, kimliyindən asılı olmayaraq, qanunların pozulmasına cəhd edən insanlar birmənalı şəkildə qanun qarşısında cavab verməlidirlər.

İradə SARIYEVA

Səsləri saxtalaşdırılmış dairələrdə köhnə namizədlər yenidən namizədlik irəli sürə bilərmi...

Məlum olduğu kimi, MSK 4 dairədə keçirilən seçkilərin nəticəsini ləğv edib. Sosial şəbəkələrdə aparılan müzakirələrdən görünür ki, bir sıra digər dairələrin namizədləri də nəticələrin ləğvini istəyirlər. Hətta ehtimallar var ki, bir neçə dairə ilə də bağlı analoji qərar qəbul oluna bilər.

Ancaq vətəndaşlar arasında nəticəsi ləğv olunan dairələrdə seçkilərin necə keçiriləcəyi ilə bağlı fikir ayrılığı var. Bəziləri iddia edirlər ki, nəticəsi ləğv olunan dairələrdəki namizədlər təkrarən həmin dairədən seçkiyə qatıla bilməyəcək, bəziləri isə həmin namizədlərin hamısının iştirakının mümkünlüyünü bildirirlər. Bəs qanunvericiliyin tələbləri bununla bağlı nə deyir?

Seçki Məcəlləsinin tələbinə görə, nəticələri ləğv olunan dairələrin qalib gəlmiş və ya şikayətçi olan namizədləri Mərkəzi Seçki Komissiyasının (MSK) qərarından yenidən şikayət edə bilərlər. Komissiyanın qərarından narazı olan şəxslərin Apellyasiya Məhkəməsinə müraciət etmək hüququ var. Bu məhkəmənin də qərarından razı qalmasalar, Ali Məhkəməyə müraciət göndərilə bilər. Məhkəməyə göndərilən şikayətlərə 3 gün müddətində baxılmalıdır. Təkrar seçkinin nə zaman keçirilməsi haqqında konkret müddət yoxdur. Məsələn, mandat ləğv edilirsə, 1 ay müddətində boş qalan yerə seçki keçirilməsi haqqında qərar qəbul edilir. Amma ləğv olunan nəticələrdən sonra yenidən seçki keçirilməsinin konkret müddəti yoxdur. Milli Məclisə seçkilərin təyin edilməsi ilə bağlı Prezident sərəncam verir. O, nə zaman sərəncam verəcəksə, ona uyğun olaraq, Mərkəzi Seçki Komissiyası seçkiləri təşkil edəcək. Bəzi hüquqşünasların rəyinə görə, nəticələri ləğv edilən dairələrdən qalib gəlmiş namizədlər təkrar seçkilərdə iştirak edə bilərlər. Bu məsələdə heç kimə məhdudiyyət yoxdur. Bunlar bizim araşdırdığımızdır. Bəs nəticələri ləğv edilən dairələrdə seçki prosesləri necə keçiriləcək?

AVCİYA Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Seçki Məcəlləsində bununla bağlı xüsusi müddə var: "Təkrar seçkilərin keçirilməsi ilə bağlı Prezident sərəncam verməlidir.

***Məhərrəm Zülfüqarlı:** "Nəticəsi ləğv olunan dairənin lider namizədi həmin dairədəki təkrar seçkilərdə iştirak edə bilməz"*

Ancaq burada maraqlı detal var. Nəticəsi ləğv olunan dairənin lider namizədi həmin dairədəki təkrar seçkilərdə iştirak edə bilməz. Bu, birmənalıdır. Ancaq digər namizədlərin iştirakında heç bir problem ola bilməz. Lider namizəd isə digər dairələrdən namizədliyini verib, marafonda iştirakını təmin edə bilər. Bir daha qeyd edirəm ki, təkrar seçkilərin konkret nə zaman keçiriləcəyini Prezident müəyyən edir. Bununla bağlı qanunvericilikdə konkret müddət müəyyənləşməyib".

Məhəmmədəli QƏRİBLİ

Avropa mərkəzlərindən Azərbaycan üzərinə "səlibçi demokratiya yürüşü"nün idarə edildiyinə daha bir sübut - Avroparlamentin sosialistləri və demokratları...

"Təəssüflə qeyd etmək istərdim ki, son seçkilərdən sonra Avropa Parlamentində (AP) bəzi radikal, şovinist və islamofob təfəkkürlü qüvvələr yer alıb. AP-ın Sosialistlər və Demokratlar Qrupu artıq ikinci dəfədir ki, Azərbaycanla bağlı əsassız bəyanatla çıxış edir".

"...ölkəmizə qarşı belə qərəzli münasibət..."

Bu fikirləri Prezidentin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa Parlamentinin Sosialistlər və Demokratlar Qrupunun Azərbaycan fundamental insan hüquqlarına riayət etməyənə qədər Avropa İttifaqı (Aİ) ilə yeni sazişin ratifikasiya olunmayacağı ilə bağlı bəyanatını şərh edərkən deyib.

H.Hacıyevin sözlərin görə, birincisi, Aİ ilə saziş hələ heç imzalanmayıb: "İkincisi, bir müddət öncə AP Azərbaycanda parlament seçkilərini müşahidə etməyəcəyini bildirmişdi. Açığı, onların bu açıqlaması bizdə təəccüb doğurdu. Azərbaycanın AP qarşısında hər hansı bir öhdəliyi yoxdur və biz heç AP-a seçkiləri müşahidə etmək üçün dəvət də ünvanlamamışdıq. Aİ 9 fevral parlament seçkilərindən sonra verdiyi açıqlamada Azərbaycanla dialoqu davam etdirməyə və ölkəmizlə sıx işləməyə hazır olduğunu bildirmişdir. Azərbaycan tərəfi də Aİ ilə əməkdaşlığı davam etdirməyə hazırdır".

Bütün bunlar onu göstərir ki, Avropadakı bir sıra qurumlar eyni mərkəzdən idarə olunurlar. Çünki bir belə təsadüf ola bilməz. Məsələ ondadır ki, seçkilərdən əvvəl AŞPA Azərbaycanda siyasi məhbus olması ilə bağlı qərəzli xarakterli qətnamə qəbul etdi. Həmçinin, seçki hələ olmamış, bəzi Avropa təsisatları Azərbaycandakı seçkiqabağı mühiti tənqid etdilər. Seçkilərdən sonra isə ATƏT PA, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu seçkilərə tənqidi prizmadan yanaşdılar. Digər Qərb təsisatları da onları dəstəklədi. Bütün bunlar onu göstərir ki, Azərbaycana yönəlik bu qərəzli siyasət bir mərkəzdən idarə olunur.

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Azərbaycana yönəlik bu cür sistemli fəaliyyət təsadüfi deyil: "Müəyyən qüvvələr bu prosesi bir mərkəzdən idarə edirlər. Belə olmasaydı, o zaman ard-arda Azərbaycana qarşı belə qərəzli münasibət sərgiləməzdilər. Avropa Parlamentində məlum qanadın fəaliyyəti də bunun tərkib hissəsidir. Görünən odur ki, sistemli şəkildə Azərbaycana qarşı çıxış edirlər. Demək olar ki, eyni vaxtda qətnamələr qəbul olunur, bəyanatlar verilir. ATƏT-in DTİHB-nin müşahidəçilərindən biri olan Aygün Attarın akkreditasiyası ləğv olunub. Hansı ki, o, açıq şəkildə ATƏT-in Azərbaycanın daxili işinə müdaxilə etdiyini dedi. Bütün bunlar özlüyündə Azərbaycanın maraqlarına cavab vermir.

Fikrət Sadıqov: "Müəyyən qüvvələr bu prosesi bir mərkəzdən idarə edirlər"

Azərbaycan belə hallara qarşı öz maraqlarından çıxış edərək addımlar atmalıdır. Dövlətimiz kiminsə sözü ilə oturub-durmur. Bizə qarşı bu cür təzyiqlərin edilməsi yolverilməzdir. Azərbaycan müstəqil siyasət yeridir. Görünən odur ki, bəzi dairələr bunu həzm edə bilmədiyi üçün müxtəlif təzyiq vasitələrini işə salırlar".

Vidadi ORDAHALLI

Ermənistanda yeni xam xəyal - "Dünya təşkilatları seçkiyə görə Qarabağı Azərbaycana qaytarmayacaq"

Ermənistan mediası iddia edir ki, Qərbin Azərbaycanda keçirilən seçkilərə tənqidi prizmadan yanaşması Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı mövcud status-kvonun dəyişməməsinə səbəb olacaq. Hətta buna görə Azərbaycan Qarabağı birdəfəlik itirə bilər.

Bunu onunla əlaqələndirməyə çalışırlar ki, Avropa İttifaqı, ABŞ, və digər ölkələr, qurumlar Azərbaycanda keçirilən parlament seçkilərini demokratik baxımdan problemli hesab etdilər. Seçkidən əvvəl AŞPA Azərbaycandakı siyasi məhbusların vəziyyəti ilə bağlı qətnamə qəbul etdi. Rusiya ilə Türkiyə Azərbaycanda keçirilən seçkiləri dəstəkləsə də, bu yetərli deyil: "Belə bir vəziyyətdə Qərb Dağlıq Qarabağla bağlı status-kvonu qoruyub saxlamağa çalışacaq. Çünki Böyük Orta Şərqdə mövcud olan situasiyada aşağıdakı geosiyasi sxem mövcuddur: Azərbaycanda avtoritarizm var, Gürcüstan demokratiyaya qayıdır, Ermənistanda tamamlanmış demokratiya mövcuddur. Pompeo Ukraynanın Krımı itirdiyini söylədi. Bildirdi ki, indi Rusiyadan heç bir şey almaq olmaz. Sabah o, Azərbaycanın Ermənistana uduzduğunu da söyləyə bilər. ABŞ reallıqların tanınması siyasətini elan edir. ABŞ Konqresinin hər iki palatası qondarma "soyqırımı" tanıyıb".

Bütün bunlardan vəcdə gələn ermənilər belə ümidə qapılıblar ki, guya belə vəziyyətdə dünya Qarabağın Ermənistan tərəfindən işğal edilməsi reallığı ilə barışacaq. Mövcud vəzəyyəti dəyişməyə səy göstərməyəcəklər.

Maraqlıdır, bəs ekspertlər erməni tərəfinin bu iddialarını necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, bu, ermənilərin arzusudur: "Reallıq isə iddia olunduğu kimi deyil. Əvvəla Türkiyə və Rusiyanın Qarabağ probleminin tənzimlənməsində birmənalı surətdə Azərbaycan dövlətinin mövqeyini dəstəkləməsi sevindirici haldır. Çünki bunlar bölgə dövlətləridir və Azərbaycanın adıçəkilən dövlətlərlə münasibətləri strateji müttəfiqlik, strateji əməkdaşlıq müstəvisində inkişaf etməkdədir. Lakin unutmaq olmaz ki, ATƏT-in Minsk Qrupunda Rusiya ilə yanaşı, ABŞ və Fransa da təmsil olunur. Bu arada Qərb təsisatlarının seçki ilə bağlı tənqidi fikirləri səsləndi. Ancaq bəzi dairələrdə seçki nəticələrinin ləğv edilməsi Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərinə ölkəmizin maraqları baxımından ciddi və müsbət mənada təsir göstərə bilər. Nəzərə almaq lazımdır ki, Azərbaycanın Avropa dövlətləri ilə ikitərəfli münasibətləri inkişaf edir. Azərbaycanın neft və qaz resurslarının əsas alıcısı Avropa dövlətləridir. Ermənilər, zatən, bir sıra məsələləri təhrif edib qərəzli formada təqdim edirlər. Guya Qarabağ Türkiyə və Rusiyanın dəstəyilə Azərbaycana birləşdirilib. Təbii ki, bütün bunlar ağ yalandır. Qarabağ tarixən Azərbaycan ərazisi olub.

Elşən Manafov: "Bu, ermənilərin arzusudur, reallıq isə iddia olunduğu kimi deyil"

"Bəzi dairələrdə seçki nəticələrinin ləğv edilməsi Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərinə..."

Düzdür, Rusiya-ABŞ, Türkiyə-ABŞ münasibətlərindəki gərginlik Qarabağ münaqişəsinin həllinə mənfi təsir edir. Belə vəziyyət status-kvonun olduğu kimi saxlanmasına təsir edə bilər. Ancaq bu o anlama gəlmir ki, Qarabağın Ermənistanın nəzarətində qalmasını dünya qəbul edəcək. Biz danışıqları danışıqlar naminə aparmırıq. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir".

Vidadi ORDAHALLI

Merkel iki il əvvəl Paşinyana yönəlik Qarabağla bağlı dediklərini "unutdumu" - Paşinyan Almaniyada...

Almaniyanın paytaxtı Berlində işgüzar səfərdə olan Ermənistanın Baş naziri Nikol Paşinyan Fridrix Ebert Fondunda çıxış edərkən yenidən sərsəm bəyanat verib. Qarabağ probleminə toxunan Paşinyan növbəti dəfə öz işğalçılıq xislətinə sığınaraq sərsəm fikirlər səsləndirməkdən çəkinməyib:

"Qarabağ Ermənistandır və nöqtə" bəyanatının çox dəqiq və konkret izahatı var".

Baş nazir məsələni birtərəfli yanaşma ilə həll etməyin mümkün olmadığını vurğulayıb. Onun sözlərinə görə, birtərəfli həll nəinki problemi həll etməyəcək, əksinə, onu daha da ağırlaşdıracaq:

"Qarabağın Ermənistanın olması ilə bağlı açıqlamama gəlincə, bunun çox sadə və konkret izahı var. Azərbaycanın Qarabağa hücumunu Ermənistan Respublikasına hücum kimi qəbul edəcəyik. Ermənistan Respublikası Qarabağın təhlükəsizliyinin təminatçısıdır".

Ancaq, digər tərəfdən, Paşinyan cəbhə xəttində gərginliyi azaltmaq üçün Azərbaycan Prezidenti İlham Əliyevlə əldə olunmuş razılığı yüksək qiymətləndirib. Qeyd edib ki, bunun sayəsində hər iki tərəfdən əsgər ölümlərinin sayını azaltmaq mümkün olub: "2018-ci ilin sentyabrından ilk dəfə bölgədə gərginlik əvvəllər görünməmiş dərəcədə azaldı. Ümid edirəm ki, konstruktiv müzakirələr nəticəsində nəinki bu nisbi sabitliyi qoruyub saxlaya, həm də münaqişənin hüquqi həllinə doğru irəliləyə bilərik ".

Çox maraqlıdır ki, Paşinyanla görüşdə Merkel ona lazım olan tərzdə irad tutmayıb. Çünki 2018-ci ilin yayında Merkelin Cənubi Qafqaza turnesi baş tutdu. Həmin turne çərçivəsində Merkel Paşinyanla görüşündən sonra bildirdi ki, Ermənistanda baş verən "məxməri inqilab"dan sonra danışıqlar prosesində yeni mərhələ başlayacaq. O bunu yenicə inqilab olmuş ölkənin lideri Paşinyanla görüşündən sonra Bakıda bəyan etmişdi. Ancaq həmin zamandan bəri Paşinyan nəinki yeni mərhələ açdı, əksinə, danışıqlar prosesini köhnədən də pis vəziyyətə gətirdi. Hətta verdiyi sərsəm bəyanatı Berlində belə təkrarladı. Merkelin bütün bu oyunbazlığa susması nə dərəcədə doğrudur?

Politoloq Elşən Mustafayevin sözlərinə görə, çox təəssüflər olsun Merkel də bu məsələdə səmimiyyətlə deyil, diplomatik tərzdə davranır: "Ermənistan və Azərbaycan 20 ildən çoxdur Dağlıq Qarabağ uğrunda silahlı münaqişədədir. 1994-cü ildə Rusiyanın vasitəçiliyilə imzalanmış atəşkəs razılaşmasından sonra Dağlıq Qarabağ və ətrafındakı Azərbaycan əraziləri erməni silahlılarının əlinə keçib. BMT qəbul etdiyi 4 qətnamə ilə erməni silahlı qüvvələrinin geri çəkilməsini tələb edib.

Həmin dövrdən bəri tez-tez atəşkəs pozulması halları baş verir və tərəflər münaqişənin həll edilməməsinə görə birbirini ittiham edir. ABŞ, Fransa və Rusiyanın daxil olduğu Minsk Qrupu həmin vaxtdan etibarən münaqişəni həll etməyə çalışır. Ancaq ortada heç bir nəticə yoxdur. Almaniya Avropanın və dünyanın nüfuzlu ölkəsidir. Daim Dağlıq Qarabağ konfliktinin nizama salınmasına maraq göstərib. Ancaq Merkelin gözü qarşısında Paşinyan bu cür tryuklar göstərirsə, mütləq cavabı verilməli idi.

Çünki Merkel Paşinyana böyük ümidlər bəsləyirdi. Onu demokrat sayırdı və ümidvarıydı ki, onun tərəfindən hansısa əməli addımlar atılacaq. Əvəzində biz tam fərqli mənzərəni gördük. Hətta Paşinyan bir qədər də irəli gedərək danışıqları müharibəyə sürükləyəcək "nida" bəyanatını yenidən səsləndirdi. Merkelin bu cür davranışlara susqun qalması qeyrisəmimilikdən xəbər verir və təmsil etdiyi ölkənin adına xələl gətirmiş olur".

Məhəmmədəli QƏRİBLİ

Suriya əsədlərinin ikiüzlülüyü bu dəfə saxta "erməni genosidi"nə sevgi formasında qabardı...

Məlum olduğu kimi, Suriya parlamenti qondarma "erməni soyqırımı"nı tanıyan qətnamə qəbul edib. Suriya parlamenti qondarma "soyqırım" ilə bağlı qətnaməni yekdilliklə qəbul edib. Türkiyə Suriyanın qondarma "erməni soyqırımı" barədə qətnaməsini qınayıb.

"Çünki 2011-ci ildən indiyədək Suriyada əsl soyqırım yaşanır"

Ramil Hüseynov: "Əsəd rejimi qondarma "erməni soyqırımı" barədə qərar qəbul etməklə özünü gülünc duruma salır"

Türkiyə Xarici İşlər Nazirliyinin bununla bağlı yaydığı bəyanatda bildirilir ki, Suriya rejiminin qəbul etdiyi və 1915-ci il hadisələrini qondarma "soyqırım" kimi tanıyan qətnamə ibrətamiz bir nümunədir: "Bu, uzun illər öz xalqına, o cümlədən, uşaqlara qarşı qırğınlar törətmiş, milyonlarla insanı evlərini tərk etməyə məcbur buraxmış və kimyəvi silahdan istifadə etmiş rejimin riyakarlığının göstəricisidir".

Bəyanatda, həmçinin, qeyd edilir ki, Suriya rejiminin məsuliyyət daşıdığı humanitar dram hələ də davam edir, Türkiyə və Suriya sərhədlərində tarixin ən ciddi fəlakətlərindən biri baş verir.

Görünən odur ki, Əsəd rejimi Türkiyəyə qarşı ən axırıncı vasitələrə belə əl atır. Hansı ki, Əsəd rejiminin buna haqqı yoxdur. Ona görə ki, bu rejim 1970-ci ildən bu günədək qanla idarə olunur. O vaxt ölkədə hakimiyyəti ələ keçirən Hafiz Əsəd çox keçmədi ki, ölkədə avtoritar rejim qurdu. Bütün narazı olan qüvvələri ya qətlə yetirməklə aradan götürdü, ya da həbsxanalara salmaqla neytrallaşdırdı. 1982-ci ildə ölkədə baş qaldıran narazılıqları zor gücü ilə yatıraraq Hama şəhərində 40 min nəfərin öldürülməsinə əmr verib. 2000-ci ildə prezident Hafiz Əsəd vəfat edəndən sonra yerinə oğlu Bəşər Əsəd gəlib. 2011-ci ildə ölkədə baş qaldıran narazılıqlar Suriyanın praktiki olaraq dağılmasına səbəb olub. Milyonlarla insan ölkədən didərgin düşüb. Yüz minlərlə insan vətəndaş müharibəsində öldürülüb. Ölkənin əksər şəhər və digər yaşayış məntəqələri viran qalıb. Bütün bunların səbəbkarı da məhz mövcud Əsəd rejimidir.

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, əsl soyqırım Əsəd rejimi tərəfindən Suriya xalqına qarşı törədilib: "O baxımdan yaxşı olardı ki, bu barədə düşünsünlər. Çünki tarix qarşısında bu ləkəni heç vaxt silə bilməzlər. Suriyanın saxta genosidlə bağlı qərarı, zatən, nəyisə dəyişməyəcək. Sadəcə, bu günlərdə Türkiyənin sərt əks zərbələrinin qarşısında aciz qalan Əsəd rejimi bu varianta əl atıb.

Sanki bununla Türkiyədən qisas alır. Ancaq Əsəd rejimi qondarma "erməni soyqırımı" barədə qərar qəbul etməklə, özünü gülünc duruma salır. Çünki 2011-ci ildən indiyədək Suriyada əsl soyqırım yaşanır. Ölkənin böyük hissəsi dağılıb. Bu gün Türkiyədə 3 milyondan çox Suriya qaçqını var. İdlibə 4 milyon insan sığınaraq Əsəd rejiminin zülmündən qorunmağa çalışır. Belə olan halda, Suriya parlamentinin məlum addımı Türkiyəyə yönəlik mənfur bir qərardır".

Vidadi ORDAHALLI

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

İşğalçı Ermənistanın iqtisadi təcridini dərinləşdirən Azərbaycan üçün əsas hədəflərdən biri bu ölkəyə qarşı dünya miqyasında da təcavüz siyasətinə görə real təzyiq mexanizmlərinin işə salınmasıdır. Eyni zamanda əsas məqamalardan biri də Cənubi Qafqazda əsas təsir qüvvəsinə malik ölkələrin Ermənistana qarşı müvafiq tədbirlər görməsidir.

Söhbət indiki halda ilk olaraq ABŞ və Rusiyadan gedir. Bura qismən Avropa İttifaqını da aid etmək olar.

Məlum həqiqətdir ki, adları çəkilən tərəflər üçün Qafqazda əsas tərəfdaş qismində məhz Azərbaycan çıxış edir. Onların ölkəmizlə daha çox yaxınlaşmaq istiqamətində atdığı addımlar, şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsinə də təsirsiz ötüşmür. Elə Ermənistanda da narahatlıq yaradan əsas məqamlardan biri böyük güclərin, xüsusən də Rusiyanın daha çox Azərbaycana doğru meyllənməsidir. Rusiya Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov da bu fonda vurğulayır ki, həqiqətən də Moskva üçün Bakı ilə əlaqələrin daha da dərinləşdirilməsi ön planda yer alır. O bildirir ki, Rusiya-Azərbaycan münasibətlərində indiki dövrdən daha müsbət dövr olmayıb: "Rusiyada heç vaxt Azərbaycanla getdikcə daha çox yaxınlaşdığımız barədə bu qədər çox danışılmayıb. Birbaşa deyə bilərəm ki, bundan daha müsbət münasibətlərimiz hələ olmayıb". Leonid Kalaşnikov "Vestnik Kavkaza" nəşrinə açıqlamasında onu da qeyd edib ki, Rusiya ilə Azərbaycan arasında müasir münasibətlər özünün yeni yüksəliş mərhələsinə daxil olub: "Bu gün mən həm bəzi rusiyalı, həm də bəzi azərbaycanlı rəsmi şəxslərdən eşidirəm ki, Azərbaycan istəyəcəyi halda onun həm KTMT, həm də AİB-ə daxil olması barədə düşünmək olar. Sözügedən təşkilatların üzvlərindən birinin bu qoşulmanı bloklamaq imkanı olmasına baxmayaraq, mən hər zaman və istənilən halda bunu dəstəkləyirəm. Biz daha sıx qarşılıqlı əməkdaşlıq etməliyik, çünki Azərbaycanla Rusiya əsl dostlardır. Dostluq sadəcə sözlərdə də deyil, biz bir-birimizi ötən illər ərzində sınamışıq. Rusiyada biz bir çox hallarda dostlarımızla bağlı yanılmışıq, məsələn Qərbdə, lakin son dövrlərdə əsl dostların harada olduğunu anlamağa başlamışıq". Leonid Kalaşnikov əlavə edib ki, Azərbaycanla bu cür münasibətlər mütləq qiymətləndirilməlidir: "Mən Avropa Şurasından bu yaxınlarda gəlmişəm, orada bütün Azərbaycan nümayəndə heyəti bizim üçün həssas məsələlərdə dəstək verdi, biz də Azərbaycanın lehinə səs verdik. Bu qarşılıqlı dəstəyə həqiqətən ehtiyacımız var, çünki kənardan bizə münasibət kifayət qədər qərəzli olaraq qalır".

Kalaşnikov onu da bildirir ki, bu halda Azərbaycan və Rusiyanın sıx işbirlyii daha vacib hala gəlir və təbii ki, belə vəziyyətdə Moskva Dağlıq Qarabağ münaqişəsinin həllində daha fəal rol oynamağa məcburdur. Xatırladaq ki, bu günlərdə Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko da Qarabağ məsələsinin Kremlin xüsusi diqqətində olduğuna dair açıqlama vermişdi: "Qarabağ mövzusu Rusiya prezidentinin, Xarici işlər nazirinin diqqət mərkəzində qalır. Bu hal davam edən vasitəçilik fəaliyyətinə xüsusi əhəmiyyət verir və bu fəaliyyətin nəticələrinə artan diqqəti müəyyənləşdirir". Təbii ki, Rusiyada Qarabağ münaqişəsinə dair sərgilənən bu mövqe Ermənistanda xoş qarşılanmır. Erməni politoloq Alen Qevondyan bu xüsusda qeyd edir ki, Rusiyanın timasalında Ermənistana qarşı yeni xarici təzyiq impulsları özünü göstərir:"Bir çoxları üçün başadüşüləndir ki, cənubdakı bəzi konyunkturalar nəzərə alınmaqla Qarabağ probleminin həllinə həyati təsir göstərən halqalardan biri Rusiyadır. Bəziləri hesab edir ki, Birləşmiş Ştatlar tərəfindən hansısa mərhələ aktivliyi baş verir. Əlbəttə, digər tərəfdaşlar Fransa və Rusiya ilə müzakirə edərək hansısa sınaq proseslərinə başlamağa çalışır. Amma hələ də əsas təsir qüvvəsi Rusiyaya məxsusdur. Rusiya isə indi daha çox Azərbaycanın yanında yer almağa çalışır". Erməni politoloq həmçinin qeyd edib ki, yaranmış durumda Qarabağ məsələsini yerli və daha geniş kontekstdə müşahidə etmək olar:



7 şübhəli əsgər ölümü Paşinyanı kütlə ilə üz-üzə qoyur...

"Yerli kəsinti ilə biz azərbaycanlılarla hansısa dil tapmalıyıq, daha yüksək kontekstdə isə bu dil digər daha böyük oyunçuların siyasəti altında legitim olmalıdır. Azərbaycan məsələnin bu tərəfindən məharətlə faydalanır və böyük oyunçular onunla birlikdədir. Ermənistan diplomatiyası buna qarşı dura bilmir".

Rusiya ilə yanaşı, Ermənistanın Qərblə münasibətlərində də problemlərin olması düşmən ölkədə əsas narahatlıq predmetlərindən biridir. Ermənistanın "Qraparak" nəşri bu xüsusda yazır ki, ölkə səlahiyyətliləri hər şeyin yaxşı olduğunu, Ermənistanın strateji tərəfdaşı Rusiya, Avropa və ABŞ-la əla əlaqələrin olduğunu bəyat etsə də, faktlar və sadə müşahidələr başqa şey deyir: "ABŞ-la Ermənistanın bu gün demək olar sıfır səviyyəsində münasibətlərinin olduğunu sezməmək çətindir. Ermənistan səlahiyyətlilərinin "turist" səfərləri hər hansı nəticə verməyib. Yatırımların arxasından Avropa, ABŞ və Kanadaya edilən səfərlər də hər hansı sonuca gətirməyib. Açıq gözlə görmək olar ki, Çin, İran, Birləşmiş Ərəb Əmirlikləri və digər Şərq ölkələri ilə Ermənistanın ya əlaqələri yoxdur, ya da onlar mənasızdır. Avrasiya İqtisadi Birliyinə üzv ölkələrlə də hər şey hamar deyil, Qazaxıstanla son gərginlik hələ aradan qaldırılmayıb. Gürcüstanla əlaqələr "salam-sabahınız xeyir" səviyyəsindən o tərəfə keçmir. Türkiyə və Azərbaycan barədə danışmaq isə artıqdır". Hazırda ABŞ-ın Qarabağ məsələsinə dair mövqeyi Ermənistanda xoş qarşılanmır. Ümumiyyətlə, hadisələrin gedişi göstərir ki, ABŞ hökumətinin Ermənistanla münasibətlərdə, o cümlədən də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələdə tutduğu mövqe İrəvan üçün məqbul deyil. Eyni zamanda, Ağ Evin Ermənistana münasibətinin pisləşməsində Rusiya faktorunun da rolu az deyil. Yayılan məlumatlara görə, Ermənistana ayrılan yardımların bir qismi də işğalçı ölkədəki Rusiya bazasının saxlanmasına gedir. Bu isə indi Vaşinqtonda xoş qarşılanmır. Ermənistan ordusunun Suriyadakı hərbi əməliyyatlarda iştirakı Ağ Evdə müsbət qarşılanmayıb və rəsmi İrəvana inamsızlıq yaranıb. Məhz bu səbəblərdən dolayı Ermənistanın yüksək vəzifəli şəxslərinin ABŞ-a səfəri zamanı onları artıq Ağ Evdə qəbul etmirlər. Bu üzdən Vaşinqton-İrəvan münasibətləri sürətlə tənəzzülə uğrayır. Bu fonda da işğalçı ölkəyə edilən yardımların həcmi sürətlə azalır. ABŞ-ın Ermənistana ayırdığı yardımın azalması və bunun Ermənistanın, eləcə də Qarabağ münaqişəsinin gələcəyinə mümkün təsirləri isə işğalçı ölkədə böyük bədbinlik yaradıb. Amma güclü erməni lobbisinin fəaliyyətinə rəğmən belə, ABŞ-ın mövqeyində dəyişikliyə nail olmaq da Ermənistanın gücü xaricindədir. Beləliklə, ABŞ-dan gələn yardımların azalması ilə Ermənistanın sosial-iqtisadi vəziyyətinin daha da pisləşməsi qaçılmaz sayılır. Eyni zamanda bu hal düşmən ölkənin Qarabağ siyasətinə də mənfi istiqamətdə ciddi təsir göstərəcək. Çünki baş verənlər həm də ABŞ-ın Qarabağ məsələsinə görə Ermənistana təzyiqlərini artıracağını istisna etmir. Elə Azərbaycan diplomatiyası da məhz bu istiqamətdə fəaliyyət göstərir.

Qafqaza marağı getdikcə artan Avropa İttifaqı da Ermənistanın mövqeyini qəbul etmir. Qurumun son illərdə qəbul etdiyi çoxsaylı sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstək ifadə olunur. Yaranmış durumda Azərbaycanın mövqeyi bundan ibarətdir ki, mövcud status-kvo qəbuledilməzdir və bu proses həmişəlik davam edə bilməz. Ona görə də Bakı İrəvanın artıq dəqiq addımlar atmasını, beynəlxalq ictimaiyyətin də bu məsələdə öz sözünü deməsini istəyir. Əks təqdirdə, Qarabağ münaqişəsinin hərbi həlli qaçılmaz olacaq. Məhz bundan sonra baş verəcək hadisələrə görə Ermənistan rəhbərliyi məsuliyyət daşıyacaq.

Düşmən ölkədə etiraf edilir ki, hərbi həll Ermənistan üçün böyük zərbə deməkdir. Çünki onlar hərbi müstəvidə Azərbaycanla üzüzə gəlmək iqtidarında deyil. Ermənistan parlamentinin deputatı Arutyun Babayan bu məqamı xüsusi vurğulayır və bildirir ki, elə erməni orlusunda baş verən son əsgər itkiləri məsələnin nə yerdə olduğunu daha aydın təsəvvür etməyə imkan verir. O, Ermənistan ordusunda cinayət "submədəniyyəti"nin olduğunu və baş nazir Nikol Paşinyanla müdafiə naziri David Tonoyanın bunu həll edə bilmədiyini söyləyib. Babayan bu məsələ ilə bağlı Tonoyanla müzakirələr apardığını bildirib: "Mən nazirə "elit hərbi hissə" barədə sual verdim, amma təəssüf ki, onun cavabı məni qane etmədi. Düşünürəm ki, bizim çox işimiz var, ona görə ki, ordunun hansısa əcaib ənənələri mövcuddur. Biz bunun barəsində dayanmadan danışmalıyıq. Heç bir məsələ gizli saxlanmamalıdır. Erməni elitası susmamalıdır".

Erməni xadim Marine Minasyan isə bildirir: "Hakimiyyət Ermənistanda "referendum" başlığı altında yeni teatr-tamaşa hazırlayana qədər Qarabağdan hər gün ağır və faciəvi xəbərlər alınır".

O qeyd edib ki, millətin ən qiymətli və əziz varlıqları, millətin gələcəyi şübhəli və qeyri-müəyyən hallarda biçilir, hazırkı hakimiyyət isə insanların beynini yumaq üçün yeni manipulyasiyalar edərək gələcək barədə "lolo"lar oxuyur: "Heç vaxt belə olmayıb ki, orduda 13 gündə 7 itkimiz olsun, üstəlik də qeyri-müharibə şəraitində. Bu nə deməkdir? Millətin gələcəyi - erməni əsgərlər şübhəli şəraitdə ölürlər, siz hansı gələcəkdən danışırsınız, cənab Paşinyan? Çox ciddi vəziyyətdir. Bu şəraitdə Qarabağ savaşının yenidən başlanmasının nə demək olduğunu təsəvvür belə etmək istəməzdim".

Tahir TAĞIYEV

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.

Namizədlikləri ləğv olunan deputatların unikal "deputatlıq tarixi"...

Məlum olduğu kimi, Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında, ümumilikdə, 4 dairədə keçirilmiş son seçkinin nəticələri ləğv edilib. Bununla bağlı MSK-nın iclasında müvafiq qərar qəbul olunub.

Nəticələri ləğv edilmiş dairələr bunlardır: 80 saylı İmişli-Beyləqan Seçki Dairəsi - lider namizəd Çingiz Qənizadə, 74 saylı Lənkəran kənd Seçki Dairəsi - lider namizəd Hadi Rəcəbli, 35 saylı Xətai 3-cü Seçki Dairəsi - lider namizəd Rauf Arifoğlu. 33 saylı Xətai 1-ci Seçki Dairəsi - lider namizəd Hüseynbala Mirələmov. Bundan əlavə, 10 seçki dairəsi ilə bağlı daxil olan şikayətlər müvafiq dairə seçki komissiyalarına göndərilib:

- 91 saylı Ucar Seçki Dairəsi
- 81 saylı Beyləqan Seçki Dairəsi
- 72 saylı Yardımlı-Masallı Seçki Dairəsi
- 95 saylı Tərtər Seçki Dairəsi
- 42 saylı Sumqayıt 2-ci Seçki Dairəsi
- 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsi
- 15 saylı Yasamal 1-ci Seçki Dairəsi
- 28 saylı Sabunçu 3-cü Seçki Dairəsi
- 79 saylı İmişli Seçki Dairəsi
- 60 saylı Salyan-Neftçala Seçki Dairəsi.

Faktiki olaraq, nəticələri ləğv edilərək mandat almaqdan məhrum edilənlərin sırasında olanların 3-ü sabiq deputatdır. Yəni parlamentin buraxılmasına səs verənlərdir. Bu şəxslər, eyni zamanda, təbliğat-təşviqat mərhələsində seçicilər tərəfindən görüşlərdən qovulanlardır. Maraqlıdır, bu 3 şəxsin deputatlıq dönəmi necə keçib?

Hadi Rəcəbli I-V çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub. Buna baxmayaraq, H.Rəcəbli yenidən deputat olmaq iddiasını ortaya qoyub. Parlamentdə təmsil olunduğu müddət ərzində o, Sosial siyasət komissiyasına rəhbərlik edib. Deputat olduğu müddətdə verdiyi açıqlamalarla daim sadə vətəndaşların qəzəbinə tuş gəlib. "Müəllimin əməkhaqqı azdırsa, gedib işdən sonra bənnalıq eləsin" kimi açıqlama da H.Rəcəbliyə məxsusdur. Ötən illərin seçki təbliğatında jurnalistlərin təqdim etdikləri materiallarda H.Rəcəblinin böyük sərvətə və daşınmaz əmlaklara sahib olduğu

H.Rəcəbli televiziyalardan birinin qonağı olarkən mikrafonun sönülü olduğunu zənn edib, ağır söyüşlər işlətmişdi və həmin material bütün efir məkanını bürüdü. Deputatlığı müddətində H.Rəcəblinin verdiyi müsahibələrin böyük əksəriyyəti ciddi ictimai qınaqla qarşılanıb. 5 çağırış deputatlığı dönəmində onun son 10 il ərzində topladığı səs faizlərinə diqqət edək. 2010-cu il parlament seçkilərində o, 74 saylı Lənkəran kənd Seçki Dairəsindən 69.28% səs toplayıb, 2015-ci ildə isə H.Rəcəbli 53.4% səslə millət vəkili seçilib. Bu il isə onun topladığı səs 53.4% olub. Bununla yanaşı, araşdırmaçı jurnalistlərin təqdim etdikləri materiallarda H.Rəcəblinin böyük sərvətə və daşınmaz əmlaklara sahib olduğu üzə çıxır. Onun Bakının mərkəzində və Lənkəranda dəyəri milyonlarla ölçülən obyektlərinin olduğu bildirilir.

Nəticəsi ləğv olunan digər millət vəkili Hüseynbala Mirələmov isə 2005-ci ildən deputat seçilir. Onun da adı müxtəlif qalmaqallarda hallanıb. 33 saylı Xətai 1-ci Seçki Dairəsindən H.Mirələmov 2010-cu ildə 65.33%, 2015-ci idə 70,8% səs, bu il isə 47.1% səs toplayıb. H.Mirələmov parlamentdə məhsuldar deputat kimi yadda qalmayıb. Adı daha çox özünə məxsus olan "Min bir gecə" restoranında qardaşı oğlunun kriminal "razborka" zəminində kimisə öldürməklə bağlı mövzuda hallanıb. Onun oğlu həmin hadisədən sonra tutduğu polis rəisi postundan uzaqlaşdırılıb. H.Mirələmovla bağlı bir neçə dəfə dünyadan köçməsi xəbəri yayılıb, sonra təkzib edilib. Bu da sübut edir ki, sağlamlıq durumu heç də lazımi səviyyədə deyil.

Elçibəy hakimiyyəti dönəmində Bakı Şərər Prokurorluğuna rəhbərlik edən Çingiz Qənizadə isə 2010-cu ildən sonra deputat seçilməyə başlayıb. Özünü demokratik düşərgənin təmsilçisi kimi qələmə versə də, millət vəkili kimi fəaliyyətində bu amillər nəzərə çarpmayıb. Builki seçkilərdə apardığı təbliğat-təşviqat dönəmində daha çox seçici etirazları ilə qarşılaşan millət vəkili olub. Ç.Qənizadənin adı Rusiyada fəaliyyət göstərən biznesmenlər arsındakı pul qalmqalaında hallanıb, hətta bunun sübutu sayılan videoyazılar da mediada işıqlandırılıb.

Daha sonra Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, deputat Ç.Qənizadənin qardaşlarının və yaxın qohumlarının banka borcu olduğu haqda məlumat yayılıb. "Assesbank" deputatın qardaşları Feyruz Qənizadə, Gündüz Qənizadə, yaxın qohumları M.Qəniyeva, Rövşən Əfəndiyev və Ruslan Həşimova qarşı Ağdaş Rayon Məhkəməsində iddia qaldırmışdı və həmin prosesdə də deputatın adı hallanırdı. Bütün bunları təhlil etdikdə MSK-nın qərarında olan nəticənin təsadüfən meydana çıxmadığı məlum olur.

Məhəmmədəli QƏRİBLİ

Türkiyə Əsəd ordusunu yenə vurdu - 60-dan çox rejim əsgəri öldürüldü

Türkiyə ordusu Suriyanın İdlib bölgəsi ətrafında Bəşər Əsədə sadiq qüvvələrə daha bir zərbə vurub. Baki-xeber.com xəbər verir ki, bu barədə Türkiyənin Müdafiə Nazirliyi məlumat yayıb.

"İdlib bölgəsində, müxtəlif qaynaqlardan alınan son məlumatlara görə, 63 rejim ünsürünün zərərsizləşdirildiyi məlum olub", - deyə məlumatda qeyd olunur.

Hələbdə Suriyanın helikopteri vurulub. "Trend"in məlumatına görə, Suriya müxalif silahlıları prezident Bəşər Əsədə sadiq qüvvələrin helikopterini vurub.

Məlumata görə, insident əyalətin qərbində baş verib.

Qeyd edək ki, bu, son bir həftə ərzində vurulan ikinci helikopterdir.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Azərbaycanlıların öz yurdlarından ermənilər tərəfindən zorakı deportasiya tarixləri...

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Azərbaycanlıların indiki Ermənistan (Qərbi Azərbaycan) ərazisindən erməni şovinistləri tərəfindən yalnız iyirminci yüzillikdə üç dəfə deportasiya edilməsi böyük tarixi həqiqətdir. Ermənilər Kremldəki tərəfdarlarının dəstəyilə soydaşlarımızı öz ata-baba yurdlarından deportasiya etməklə həm tarixi torpaqlarımıza sahiblənmək istəyiblər, həm də bütövlükdə Azərbaycan türklərinin izlərini tamamilə Qərbi Azərbaycandan silmək məqsədi güdüblər.

II yazı

Təəssüflər olsun ki, sonda buna nail olublar. Erməni şovinistləri nəinki azərbaycanlıları, eləcə də bu torpaqda tarixən azərbaycanlılarla qonşu yaşayan xalqları da deportasiya ediblər. Bu gün monoetnik dövlət olan Ermənistanda ermənilərdən və bir də ermənileşdirilmiş yezidi kürdlərdən başqa ikinci bir xalq yaşamır.

Azərbaycan türklərinin indiki Ermənistan adlanan ölkənin ərazisindən, Qərbi Azərbaycandan ermənilər tərəfindən deportasiya edilməsinin tarixini araşdıranlardan biri olan tarixçi-alim Nuru Məmmədovun üzə çıxardığı faktlar çox ilgincdir. Alimin tədqiqatı nəticəsində məlum olur ki, ermənilər keçmiş Azərbaycan SSR K(b)P MK-nın birinci katibi Mircəfər Bağırova da şər atırlar. Erməni mətbuatı iddia edir ki, guya ki, bu işdə M.C.Bağırovun da əli olub. Alimin bildirdiyinə görə, 1990-cı il noyabrın 11-də "Ermənistanın səsi" qəzetində həmin məsələ ilə bağlı dərc edilən məqalədə yazılmışdı ki, guya M.Bağırov Q.Arutyunovla əvvəlcədən razılaşdıqdan sonra xaricdə yaşayan erməniləri Ermənistanda yerləşdirmək məqsədilə hər ikisi 10 dekabr 1947-ci il tarixli məktubla Stalinə müraciət edib. "Bu müraciətə cavab olaraq SSRİ Nazirlər Soveti iki qərar vermişdir. M.C.Bağırovun məktuba imza atıb-atmaması tədqiqatçılar tərəfindən müxtəlif versiyalarda izah edilir. Azərbaycan K(b)P MK-nın ikinci katibi olmuş M.H.Seyidov xatirələrində yazır ki, 1947-ci ilin oktyabrından MK-nın Siyasi Bürosunun qərarı ilə Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova Yessentukidə müalicə olunmaq üçün 4-5 aylıq məzuniyyət verilmişdi. Ona görə də səlahiyyətlər ikinci katibə keçmişdi. Tarix elmləri doktoru, professor E.İsmayılov belə hesab edir ki, bu işə razılıq vermədiyi üçün M.C.Bağırov müvəqqəti olaraq vəzifəsindən kənarlaşdırılmışdı. Digər tərəfdən isə Azərbaycan rəhbərlərindən kiminsə həmin məktuba imza atıb-atmaması İ.V.Stalin üçün həlledici olmaya da bilərdi. Tarixi sənədlərdən məlumdur ki, 1947-ci il noyabrın 28-də Ermənistan K(b)P MK-da geniş büro iclası keçirilmişdi. Həmin iclasda azərbaycanlılar yaşayan rayon partiya komitələrinin nümayəndələri və respublikanın yüksək vəzifəli şəxsləri iştirak edirdi. Büroda Arutyunov demişdi ki, Moskvada olarkən M.C.Bağırovla azərbaycanlıların Ermənistandan köçürülməsi və 450-500 min erməninin bura qaytarılması, onların buradan köçürülənlərin boş qalan mülklərində yerləşdirilməsi məsələsi razılaşdırılmışdır. Hətta Arutyunov bildirmişdi ki, bu razılaşma Mikoyanın, Beriyanın və Deqonazovun (SSRİ Xarici İşlər nazirinin müavini) qəbullarında olarkən əldə edilmiş və bütün qəbullarda M.C.Bağırov iştirak etmişdir. Stalinin imzası ilə hər iki qərarda Azərbaycan millətindən olan kolxozçuların və başqa əhalinin Ermənistan SSR ərazisindən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi nəzərdə tutulmuşdur. Bu qərarların birincisində (23 dekabr 1947) göstərilirdi ki, Ermənistan SSR-dən 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min azərbaycanlı (cəmi 100 min) Azərbaycan SSR ərazisinə köçürülməlidir. Bu qərar 1953-cü ilə qədər qüvvədə qaldı. Başqa sözlə, 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindən Azərbaycana 150 min azərbaycanlı köçürüldü. Hər iki sənədi nəzərdən keçirdikdə məlum olur ki, onlar tələsik hazırlanmışdır və heç bir şərait nəzərə alınmamışdır. Qərarın belə təcili hazırlanmasının mahiyyəti onun 11-ci maddəsində daha aydın görünür. Burada deyilir: "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililər və yaşayış evlərindən xaricdən gələn erməniləri yerləşdirmək üçün istifadə edilsin".

SSRİ Nazirlər Sovetinin 10 mart 1948-ci il tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qəbul etdiyi 754 saylı qərarda göstərilirdi ki, bu sənəd SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarına əlavədir. 1948-ci il 10 mart tarixli qərarda artıq köçürmə ilə əlaqədar konkret tədbirlərdən bəhs olunurdu. Qeyd edilirdi ki, Ermənistan SSR-dən Kür-Araz ovalığına köçürülən kolxozçular özləri ilə əsas istehsal vasitələrini - kənd təsərrüfatı maşınlarını, avadanlığı, canlı və mexaniki qoşqu qüvvələrini, bütün növdən olan ev heyvanlarını və quşları, nəqliyyat vasitələrini və başqa əşyaları da apara bilərlər".

N.Məmmədovun vurğuladığına görə, qərarda Ermənistan SSR və Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılırdı ki, bir ay müddətində əhalinin əmlakının dəyərinin ödənilməsi qaydaları müəyyənləşdirilsin. O qeyd edir ki, köçürüləcək əhalinin yerləşdirilməsi, qoşqu vasitələrini və ev heyvanlarını apara bilmələri və digər məsələlər üzrə əlavə tədbirlər barədə Azərbaycan rəhbərliyi 1948-ci il fevralın 2-də və aprelin 14-də qərarlar qəbul etdi. "Azərbaycan hökuməti İrəvanda xüsusi nümayəndəliyini açdı və Mürsəl Məmmədov adlı şəxsi ora rəhbər təyin etdi.

SSRİ rəhbərliyi köçürülmə ilə bağlı həlledici qərarları Azərbaycan SSR hökumətinin üzərinə qoymaqla özünün tarix qarşısındakı məsuliyyətini "sığortalayırdı". Kommunist rəhbərlər bu incə siyasəti ilə, əslində, deportasiyanın əsl mahiyyətini ört-basdır etmək istəyirdilər. Tezliklə müəyyən olundu ki, Kreml rəhbərlərinin tələm-tələsik verdikləri qərarlar çox ağır sosial və siyasi bəlalar törətdi, köçürülənlərin ciddi narazılıqlarına səbəb oldu və böyük mübahisələr yaratdı. Bununla bağlı Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistandakı nümayəndəsi Mürsəl Məmmədovun M.C.Bağırova ünvanladığı 12 aprel 1948-ci il tarixli məktubunda deyilirdi ki, köçürülən azərbaycanlılar, ilk növbədə, öz daşınmaz əmlaklarını (evlərini) satmaq istəyirlər. Ancaq bu məsələdə böyük çətinliklərlə üzləşirlər. Hər gün kolxozçular müraciətlər edir, ancaq müsbət cavablar almırlar. Erməni rəhbərləri qəsdən və süni şəkildə əngəllər törədirlər ki, azərbaycanlılar mülklərini sata bilməsinlər. Hətta bəzilərinə evlərini satmağı qadağan edirlər. Məktubun sonunda deyilirdi: "...Məndə bu barədə kollektiv ərizələr vardır..."

Bundan başqa, Kür-Araz ovalığı suvarılan torpaqların istifadə idarəsinə tapşırıldı ki, köçürülən kolxozçulara texniki yardım göstərilməsi, yaşayış evlərinin tikilməsi və yardımçı təsərrüfatların yaradılması üçün onlara kömək etsin. Həmin il köçürülənlər üçün 2500 yaşayış evi tikmək nəzərdə tutulurdu. 1952-ci ildə Ermənistan SSR-dən köçürmə planı 24,6 faiz yerinə yetirildi. Köçürülənlər üçün evlər tikilməsi planına 80,6 faiz əməl olundu. Lakin bir mühüm məsələni qeyd etmək lazımdır ki, əhalinin kütləvi şəkildə köçürülməsinə etiraz bildirənlər və müqavimət göstərənlər getdikcə artır, bəziləri hətta geri qayıdırdılar. Araşdırmalar göstərir ki, deportasiya edilən azərbaycanlılar dövrün və zamanın sərt üzünə baxmayaraq, hətta Stalinin imzaladığı qərarlara da məhəl qoymurdular. 1948-1950-ci illərdə 376 təsərrüfatın geri qayıtması xəbərini Ermənistan Nazirlər Sovetinin sədri S.Karapetyan (29 may 1950-ci il tarixli teleqramında) Ermənistan üçün faciə hesab etmiş və dərhal ciddi tədbirlər görülməsini zəruri bilmişdi. Geri qayıdanların sayı Stalinin ölümündən sonra daha da sürətləndi.

Azərbaycana köçürülənlərin sayı ilə əlaqədar bir məsələyə xüsusi diqqət yetirmək lazımdır. Sənədlərdən aydın olur ki, həmin illərdə rəsmi köçürmə ilə yanaşı, Ermənistanda yaradılmış dözülməz şəraitdən, təhqirdən canını qurtarıb Azərbaycana pənah gətirənlər də az olmamışdır. Hətta yerli rəhbərlər qərarda göstərilməndən daha çox azərbaycanlını müxtəlif yollarla torpaqlarından qovmağa çalışırdılar. Əksər hallarda erməni daşnakları və silahlı dəstələri azərbaycanlı ailələrin evlərinə soxulub onları təhqir edir, incidir və köçməyəcəkləri təqdirdə öldürməklə, mal-mülklərini dağıtmaqla hədələyirdilər. Həmin vaxtlarda kilsənin və erməni təbliğatının fəallaşması və mərkəzdən yararlanması azərbaycanlı əhalini ağır vəziyyətə salırdı. Ona görə ki, həm yerli partiya və hakimiyyət orqanlarından, həm Ermənistan, həm də SSRİ rəhbərliyindən heç bir kömək görməyən azərbaycanlılar özlərinin daşınmaz əmlakını ya ucuz qiymətə satır (əgər sata bilərdisə), ya da vahimədən tez qurtarmaq üçün mal-mülklərini orada qoyub qaçırdılar".

Alimin vurğuladığına görə, araşdırmalar nəticəsində məlum olub ki, 1948-ci ildə 429 ailə (2384 nəfər), 1948-1950-ci illərdə isə 1000 təsərrüfatdan çox (7 min nəfər) azərbaycanlı ailəsi müxtəlif təzyiqlərə məruz qalaraq pərakəndə halda əmlaklarını qoyub Azərbaycana pənah gətirib. Bu isə dözülməz maddi çətinliklər törədirdi. Erməni millətçiləri azərbaycanlılar arasında müxtəlif şayiələr yayır, vahimələr yaradırdılar. Nəticədə minlərlə azərbaycanlı ailəsi nəinki Azərbaycanın müxtəlif rayonlarına, hətta SSRİ-nin başqa respublikalarına da qaçmağa məcbur olmuşdu. Beləliklə, 1948-1953-cü illərdə Ermənistandan 144.654 nəfər doğma ev-eşiyindən zorla köçürülmüşdü. "Ermənistan ərazisində elə indinin özündə əvvəllər azərbaycanlıların yaşadığı yüzlərlə kənd xarabazarlığa çevrilmişdir. Ermənistan KP MK-nın 1975-ci il yanvar plenumunda göstərilmişdi ki, 476-dan çox kənd istifadəsiz qalmışdır. Deportasiya ilə yanaşı, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi sürətlə aparılırdı. Nəticədə yüzlərlə, minlərlə kənd və rayon adları ermənileşdirilmişdi.

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki doğma yurdlarından qovulması Stalin-Mikoyan siyasətindən irəli gələn planın məntiqi yekunu idi. Bu siyasət totalitar rejimin bütün zamanlarında özünü büruzə vermiş və həmişə də ən incə metodlarla həyata keçirilmişdir.

Xüsusilə M.Qorbaçov hakimiyyətə gəldikdən sonra (1985-ci ildə) ermənipərəst siyasət rəsmi dövlət səviyyəsinə çatdırıldı. Türk və müsəlman dünyasının qatı düşməni olan M.Qorbaçov bütün məsələlərdə anti-Azərbaycan mövqedə dayanır və bu siyasəti yeridirdi. Həmin mövqe 1948-1953-cü illərdə azərbaycanlıların deportasiya siyasətində də özünü göstərmişdi. Sovet rəsmi sənədlərində bir çox köçürülməyə hüquqi-siyasi qiymət verildiyi halda, azərbaycanlıların deportasiyasının heç adı belə çəkilmirdi. Təəccüblüdür ki, SSRİ Ali Sovetinin 1989-cu ilin noyabrında (41 il sonra) məcburi köçürülməyə məruz qalmış xalqlara qarşı repressiya aktlarının qanunsuzluğu, cinayətkarlığın etiraf olunduğu və onların hüquqlarının müdafiəsi haqqında bəyannaməsində azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsinə toxunulmur, bu hadisə deportasiya hesab edilmir.

1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən kütləvi şəkildə deportasiyasına düzgün və obyektiv hüquqi-siyasi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verildi. Ulu öndərin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən, tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli Fərmanı böyük elmi-siyasi, tarixi əhəmiyyətə malik sənəddir.

Erməni millətçiləri və daşnakları tərəfindən Azərbaycan xalqının başına gətirilən müsibətlər nəticəsində təkcə XX yüzillikdə 2 milyondan çox azərbaycanlı erməni vandalizminin, soyqırımı siyasətinin qurbanı olmuşdur. Azərbaycanlıların kütləvi şəkildə deportasiya edilməsi, 150 mindən çox dinc əhalinin zorakılıqla dədə-baba torpaqlarından qovulması, on minlərlə insanın ağır məşəqqətlərlə üzləşməsi, yüzlərlə və minlərlə günahsız adamın xəstələnməsi, həlak olması, bir sözlə, xalqımızın başına gətirilən dözülməz faciələr hüquqi cəhətdən 1948-ci ildə BMT-nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın 2-ci maddəsinə uyğun olaraq soyqırımı və etnik təmizləmə kimi qiymətləndirilməlidir" - deyə alim bildirib.

İradə SARIYEVA

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.

Gözlənilən Türkiyə-Suriya müharibəsinin ssenarisi açıqlandı - NATO, Rusiya və İran da savaşa qoşulacaq...

İdlib ətrafında yaranan qalmaqldan sonra Türkiyə-Suriya münasibətlərinin hansı istiqamətdə inkişaf edəcəyi, prosesin nə ilə nəticələnəc'yi hazırda dünya siyasi gündəminin əsas mövzuları sırasında yer alır. Belə görünür ki, Ankara məsələnin danışıqlar yolu ilə həllində maraqlı olsa da, Dəməşq tamam fərqli mövqedən çıxış edir.

Hətta belə bir vaxtda Suriya parlamentində qondarma "erməni soyqırımı"nın tanınmasına dair müzakirələr aparılması, müvafiq qanun layihəsinin qəbul edilməsi vəziyyəti daha da ağırlaşdırır. Artıq Türkiyə Xarici İşlər Nazirliyi Suriya parlamentinin qondarma "erməni soyqırımı"nı tanımasına münasibət bildirib. Nazirliyin mətbuat katibi Hami Aksoy bildirib ki, Suriya parlamentinin 1915-ci ildə baş vermiş hadisələri "soyqırımı" kimi tanıması ikiüzlülüyün təzahürüdür:"Bu addım uzun illərdir öz xalqını qətlə yetirən, milyonlarla insanı öz evindən didərgin salan və kimyəvi silahdan istifadə məharəti yaxşı bilinən rejimin ikiüzlülüyünün təzahürüdür. Suriya hakimiyyətinin baiskar olduğu fəlakət davam edir və bu fəlakət bizim sərhədlərimizdə yaşanmaqdadır. Dəstək verilməyən iddiaların beynəlxalq aləmdə legitimliyini itirmiş zalım rejim tərəfindən irəli sürülməsi isə bunun arxasında yatan əyri zehniyyətin açıq təzahürüdür".

Bu mənfur addımla yanaşı, Bəşər Əsəd qüvvələrinin İdlib ətrafına cəmləşdirilməkdə davam etməsi tərəflər arasında savaş ehtimalını artırır. Ankaranın Əsəd rejiminə böyük təsir imkanlarına malik Rusiyadan əsas tələbi bu durumda Suriyanı danışıqlar masasına oturdub, hücumların qarşısını almaqdır. Əslində Rusiya tərəfi də son bir neçə həftədir buna çalışır. Rəsmi Moskva son bəyanatlarında bildirdi ki, Türkiyə və Suriyanı danışıqlar masasına oturtmaq üçün əlindən gələni etməyə hazırdır. Ekspertərlərə görə, Rusiya təsir və təzyiq vasitələrindən istifadə edərək, müəyyən mənada bu gərginliyin daha yumşaq məcraya dönməsi, danışıqların aparılmasına nail ola bilər. Bunun üçün Ankara Moskva ilə danışıqlar aparmaqda maraqlıdır. Türkiyə Astana formatında əldə olunmuş razılaşmalara Rusiya və İranın əməl etməsini tələb edir. Çünki Rusiyanın bu məsələdə müəyyən öhdəlikləri var və bu öhdəlikləri yerinə yetirərsə, Suriyada sülhə nail olmaq olar. Türkiyə tərəfi də hazırda bunun üçün Rusiya ilə danışıqlara maraq göstərir. Amma belə görünür ki, Əsəd rejimi prosesləri ayıq başla qiymətləndirməyib, Türkiyə ilə savaşa daha çox meyllənir. Bu durumda Ankaranın hərbi gücdən daha çox istifadə etməyə məcbur qalacağı da qaçılmazdır. Rus ekspert Konstantin Sivkov bu xüsusda bildirir: "Ehtimal olunan əməliyyat sahəsində Türkiyə birləşmələrinə hava və quru qüvvələri daxil ola bilər. Əməliyyata cəlb olunacaq Hərbi Hava Qüvvələrinin ehtimal olunan sayı 120-140 təyyarədir. Quru qüvvələrinin qruplaşdırılması bölgənin əməliyyat qabiliyyəti ilə məhdudlaşır və iki əlavə briqada, artilleriya və xüsusi təyinatlı qüvvələr də daxil olmaqla, maksimum ordu korpusunu təşkil edəcək. Yəni sayı 25-30 min nəfər olan heyət olacaq. 200-250 tank, 500 zirehli personal daşıyıcısı və 300-ə qədər, o cümlədən "T-155 Fırtına" və "M107" kimi 100-120 uzunmənzilli artilleriya da bura dabilər. Bundan əlavə, 10 mindən çox hərbçi Türkiyə Silahlı Qüvvələrinin tərəfində və onlarla əməkdaşlıqda "İdlib qazanı"nda olacaq. Açıq məlumatdır.

Suriya ordusu və müttəfiqlərinin Rusiya istehsalı olan təsirli tank əleyhinə silahlarının (xüsusən də "Kornet" tank əleyhinə sisteminin), həmçinin müasir "T-90A" (Əsəd qoşunlarında 20 ədəd ola bilər) və modernləşdirilmiş "T-72" tanklarının mövcudluğu da nəzərə alınmalıdır. Türk komandanlığı qoşunlarını ən müasir "Leopard -2A4" və "M60T" ilə təmin edəcək. Buraya aviasiyanın əsas qüvvələri, o cümlədən 30 hücum helikopteri də daxil olacaq. Bundan əlavə, hadisələrin gedişində NATO-nun, Rusiya və İranın da prosesə fəal müdaxiləsi müharibənin miqyasını genişləndirəcək. Çox güman ki, Türkiyə, Rusiya və Suriya problemi diplomatik istiqamətdə həll etmək üçün yeni yollar axtarmalı olacaq. Yeganə həqiqi həll yolu isə bütün tərəflərin vicdanla icra etdiyi müqavilə ola bilər".

Nahid SALAYEV

Çinin koronavirus bəlası Rusiyada Azərbaycan məhsullarına tələbi sürətlə artırır

Azərbaycanın aqrar məhsullarının ixracında Rusiyanın hələ də əsas bazar qismində çıxış etməsi heç kimə sirr deyil. Belə bir vaxtda diqqət çəkən məqamlardan biri isə Rusiyada Azərbaycan aqrar məhsullarına sürətlə artan tələbdir.

Məsələ burasındadır ki, Rusiyada Uzaq Şərqdə Çinlə sərhədin bağlanması səbəbindən tərəvəzlərin qiyməti iki dəfə bahalaşıb. Rusiya mətbuatının yazdığına görə, Primoryedə xiyarın kiloqramı 400 rubla (10 manat 74 qəpik) qalxıb. Koronavirus pomidorların da qiymətinin astronomik həddə çatmasına səbəb olub. Belə ki, Azərbaycandan gətirilmiş pomidorun 1 kilosunun qiyməti 700 (18 manat 79 qəp) rübladək qalxıb.

Daha əvvəl yayılan məlumatlara görə, "Maqnit" pərakəndə satış şəbəkəsi Çindən meyvə və tərəvəz tədarükünü dayandırıb. Riteylerlər koronavirusun yayılması fonunda tədarükçüləri dəyişmək niyyətindədir. Bu isə Azərbaycandan Ruisyaya gedən meyvə və tərəvəzin də qiymətinin yüksələcəyini deməyə əsas verir. Yerli hökumət rəsmiləri və meyvə-tərəvəz idxalçıları bu vəziyyətin yaxın aylarda da davam edəcəyini bildirir. Çünki Çində koronavirus epidemiyası getdikcə vüsət almaqdadır və nəticədə Rusiyanın Uzaq Şərqinə tərəvəz təchizatı çətinləşməkdədir. Hazırda Rusiyanın Uzaq Şərqi ilə yanaşı, digər şəhərlərində də Azərbaycan istehsalı olan tərəvəzin bahalaşması müşahidə edilir. Belə vəziyyətdə Azərbaycan məhsullarını Rusiya bazaralarına göndərmək fermerlər üçün daha sərfəli hala gəlir. Amma bu, daxildə qiymət artımına da rəvac verə bilər.

Düzdür, bəzi məhsullar üzrə qiymət artımına yol verməmək üçün onların ixracına gömrük rüsumları tətbiq olunub. Kartofun, kələmin, soğanın və bəzi digər belə məhsulların ixracına görə tətbiq edilən rüsumlar da bunun təsdiqidir. Atılmış bu addım daxili bazarda qiymət sabitliyinin təmin olunmasına, ölkə əhalisinin bu məhsullara olan tələbatının daha dolğun ödənilməsinə xidmət edir. Amma Rusiyada artan qiymətlər, hətta rüsumların tətbiq olunduğu halda belə, ora məhsul ixracını əlverişli hala gətirir. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin şöbə müdiri Nicat Nəsirli bu xüsusda bildirir: "Son 4-5 ildə Rusiya bazarında kifayət qədər ciddi rəqabət mühiti var. Əvvəlki kimi hər məhsulu bu gün Rusiyaya göndərə bilmirik, artıq o bazar ixtisaslaşıb. Bu gün təxminən 4-5 adda məhsulumuz Rusiyaya gedir. Amma koronavirusla bağlı karantin tədbirlərinin xeyli vaxt çəkməsi bizim üçün bazarda əlverişli mühit yaradır. Keçən il 189,3 milyon dollar dəyərində pomidor ixrac etmişik ki, bunun da təxminən 90 faizi Rusiyaya gedib. Amma bizim birdən-birə istehsalı dəfələrlə artırmağımız bir az çətindir. Bu, qəfildən ortaya çıxmış vəziyyətdir, buna rəğmən, növbəti dövr üçün istixana məhsullarının istehsal potensialı müəyyən edilməlidir. Yenidən istixanalar qurmaq, təkrar əkinə keçmək bir az vaxt aparan məsələdir. Fikrimcə, mövcud vəziyyət bizim üçün bazarda əlverişli mühit yaradır, amma qısa zamanda istehsalı dəfələrlə artırıb bazarı təmin etməyə hazır deyilik. Mart ayının sonunda bizdə faraş məhsullar yetişir. Əsasən kartof və digər məhsullar üçün əlverişli mühit yaranır".

"İxracın artması daxili tələbatımızın təmin edilməsinə təsir edirmi" sualına cavabında ekspert deyib ki, məsələnin bu tərəfi də var: "Məsələn, keçən il 7 min ton soğan ixrac etdik, amma bu, daxildə istehlak qiymətinə ciddi təsir göstərdi. İxrac zamanı daxili bazar nəzərə alınmalıdır. Keçən il hökumət məcbur qalaraq kartofa ƏDV tətbiq etdi ki, bütün kartof Rusiyaya daşınmasın. Daxili bazar da qorunmalıdır. Düzdür, ixrac strateji məsələdir, amma daxili bazarın, əhalinin qida ilə təminatı ondan da strateji məsələdir". O qeyd edib ki, Rusiya bazarlarına əsasən faraş yetişən məhsullar göndəririk: "Bunlardan, ilk növbədə, əsasən Cəlilabad, Tovuz, Şəmkir və Gədəbəydə yetişən yazlıq kartofu qeyd etməliyik. Aprel ayının birinci ongünlüyündən başlayaraq Rusiya bazarına təxminən ildə 300 min tondan çox faraş kartof göndəririk. Rusiya bazarlarında ikinci mövqe qazanan məhsulumuz da tərəvəz məhsuludur. Belə ki, pomidor il ərzində nəinki Moskvada, hətta Rusiyanın digər bölgələrində belə satılır. Rusiyanın bir sıra bazarlarında Qırğızıstan, Özbəkistan və Türkiyədən gətirilən pomidorları Azərbaycan pomidoru adı ilə markalayaraq istehlakçılara təqdim edirlər. Nar və xurma məhsullarımız da orda böyük məmnuniyyətlə qarşılanır. Bu sıraya fındığı da əlavə etməliyik. Azərbaycan fındığı yağlılığına görə Rusiya və digər dünya bazarlarında rəğbətlə qarşılanır. İldə fındıqdan təxminən 100 milyon ABŞ dollarından çox gəlir əldə edirik".

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn də qeyd edir ki, 2018-ci ildə olduğu kimi, 2019-cu ildə də Azərbaycandan ən çox kənd təsərrüfatı məhsulları Rusiyaya ixrac edilib: "Xüsusən də meyvə-tərəvəz ixracımızda Rusiya ön sırada gəlir. Azərbaycandan kənd təsərrüfatı məhsulları, xüsusən də meyvə-tərəvəz ixracı əsasən özəl şirkətlər tərəfindən həyata keçirilir. Kənd təsərrüfatı məhsullarının ixracında dövlət şirkətlərinin payı çox cüzidir. 2017-ci ilə kimi Rusiyaya kənd təsərrüfatı məhsullarının ixracını əsasən fiziki şəxslər həyata keçirirdi. Amma 2017-ci ildən etbarən ölkəmizdə həyata keçirilən islahatlar və gömrükdə şaffaflaşdırma siyasəti nəticəsində bu sahədə tendensiya dəyişdi və Rusiyaya məhsul ixracı həyata keçirən fiziki şəxslər şirkətlər yaradaraq ixracı da onun vasitəsilə reallaşdırmağa başladılar. 2019-cu ildə də Rusiyaya kənd təsərrüfatı məhsullarımız əsasən hüquqi şəxslər vasitəsilə ixrac edilib. Azərbaycanın kənd təsəsrrüfatı məhsulları ixrac etdiyi ölkələr sırasında son 5 ildə Rusiya lider mövqedə olub və 2019-cu ildə də bu mövqeyini qoruyub". Belə görünür ki, cari il ərzində Azərbaycandan Rusiyaya məhsul ixracı sürətlə davam edəcək və qiymətlərin artması daha çox sayda fermerin diqqətini bura yönəldir. Hesab edilir ki, daxili bazarda problem yaranmasa, Azərbaycan Rusiyaya aqrar məhsulların ixracından cari ildə böyük həcmdə gəlir əldə edəcək.

Ramil QULİİYEV

Akademiyanın Riyaziyyat və Mexanika İnstitutunun professoru Rəyasət Heyətini nələrdə günahlandırır...

Rövşən Bəndəliyev: *"...AMEA professoru adına qeyri-həssas yanaşma mənim kimi 24 nəfər 50 yaşına qədər olan sayseçmə alimlərimizin həm respublika daxilində, həm də respublika xaricində elmi nüfuzunun aşağılanması kimi başa düşülə bilər"*

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin 2019-cu ilin sonlarında çıxardığı bir sıra qərarlar AMEA-nın müvafiq institutlarının aparıcı elm adamları tərəfindən normal qarşılanmır. Bəzi alimlər narazılıqlarını şöbələrdə, dəhlizlərdə pıçıltı ilə dilə gətirsələr də, bu kimi hallara qarşı açıq narazılıq edənlər də yox deyil.

Müsahibimiz AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu Riyazi analiz şöbəsinin baş elmi işçisi, riyaziyyat üzrə elmlər doktoru, AMEA-nın professoru Rövşən Bəndəliyev AMEA sistemində onu narahat edən məsələlərə aydınlıq gətirdi.

- Rövşən müəllim, siz AMEA Professorlarının Koordinasiya Şurasının sədrisiniz AMEA professorları haqqında AMEA Rəyasət Heyətinin dekabr qərarından niyə narazısınız? Sizin etirazınıza səbəb nə olub?

- Bəli, bu qərar 10.12.2019-cu il tarixində verilib. Birincisi, ona görə narazıyam ki, bu qərar verildikdə nə mənim AMEA PKŞ-nin sədri kimi, nə də digər AMEA professorlarının heç birinin xəbəri olmayıb. Qeyd etmək istərdim ki, mənim kimi digər professorların - 11 nəfərin elmi adı 3 il müddətində nəinki respublikamızda, hətta ölkə xaricinə gedən rəsmi elmi sənədlərdə AMEA professoru kimi qeyd edilib. Hesab edirik ki, bu addımın atılması alim nüfuzunun tapdanması, AMEA professoru adına qeyri-həssas yanaşma mənim kimi 24 nəfər 50 yaşına qədər olan sayseçmə alimlərimizin həm respublika daxilində, həm də respublika xaricində elmi nüfuzunun aşağılanması kimi başa düşülə bilər. Müəyyənlik üçün qeyd etmək istəyirəm ki, mən Rusiya Elmlər Akademiyasının Professorlarının Koordinasiya Şurasının sədri ilə 2 il müddətində əlaqə saxlamışam, bu əlaqələr bizim professorlarla müəyyən işçi seminarların keçirilməsi, multidissiplinar sahədə tədqiqat işlərinin aparılması və s. məsələlərdən ibarət idi. İndi isə AMEA-da bu adın təsis olunması haqqında bir qədər ətraflı məlumat vermək istərdim. AMEA professoru adı mənim dəfələrlə qeyd etdiyim kimi, AMEA-da gələcəkdə keçiriləcək akademik seçkilərdə 50 yaşa qədər olan perspektivli kadr bazasının yaradılmasına hesablanıb. Bizim fəaliyyət göstərdiyimiz 2 ildən bir qədər artıq müddətdə bır sıra görüşlər keçirilərək, respublikada müxtəlif elm sahələrində dünya elminə inteqrasiya baxımından müxtəlif müzakirələr aparılıb. Bizim 25 nəfərlik heyətin bu baxımdan dəyərli fikirləri mövcud idi. İndi bu fikirlərin həyata keçirilməsi qərəzli qərardan sonra problemli görünür. Bu seçkilərdə bizə səs vermiş eyni üzvlərin 2,5 ildən sonra əks qərar verməsi çox gülüncdür. Yəni heç bir müzakirə olmadan qərar qəbul edilib. Lakin bizim sıralarda elə bircə Avropa Cərrahlar Assosiasiyasının keçmiş prezidenti Kənan Yusifzadəni qeyd etmək istərdim.

- Siz AMEA Rəyasət Heyətinin iclasında çıxarılan bu qərara görə Əminağa Sadıqovu ittiham edirsiniz. Niyə məhz Ə.Sadıqovu? Belə deyək, bu qurumda ondan yuxarıda dayanan vəzifə sahibləri də var…

- Bəli, bu iclasın gündəliyini tərtib edən odur. Mən bu qərardan sonra onun qəbulunda oldum. O, (Ə.Sadıqov - İ.S.) istənilən vəchlə bu məsələni Ali Attestasiya Komissiyasının üzərinə atmağa çalışırdı. Lakin bu məsələ AMEA RH-nin sırf daxili məsələsidir və qərarı da yalnız onlar verə bilərdi. Bəli, bizə 2017-ci ildə səs vermiş digər üzvlər də eyni məsuliyyət daşıyırlar. Lakin bizi bu məsələdə dəstəkləyən səlahiyyətlilər də olub. Fürsətdən istifadə edib onların hər birinə öz minnətdarlığımı bildirirəm.

- Müsahibə öncəsi bizimlə söhbətinizdə qeyd etdiniz ki, Ə.Sadıqov AAK-dan professor adını şübhəli yollarla alıb və onun AMEA-nın müxbir üzvlüyünə necə seçilməsi də göstərdiyi fəaliyyətə adekvat deyil. Bunu nə ilə əsaslandıra bilərsiniz?

- Bəli, o zaman AAK-da ekspert şurasında iştirak edən yoldaşların əksəriyyəti doğrudan da bu prosesin çox sürətli baş verdiyini qeyd etdilər və ən azından, AAK-dan professor adını almaq üçün bəzi göstəricilər lazımdır. Heç olmasa, doktorantı müdafiə etməlidir və nüfuzlu elmi jurnalda elmi əsəri olmalıdır. Ə.Sadıqovun müxbir üzvlüyə namizədliyi AMEA-ya 2016-cı ildə elan olunmuş seçkilərdə irəli sürülüb. Bu iclasda hörmətli akademiklərdən biri hansı əsasla Ə.Sadıqovun namizədliyinin irəli sürülməsi məsələsinə toxunub. Yəni onun nüfuzlu elmi jurnallarda elmi əsərlərinin olması məsələsi nəzərdə tutulurdu. Bu zaman iclasda iştirak edən AMEA-nın professorlarından biri məsuliyyəti öz üzərinə götürüb və onun da adı qeyd edildiyi və (bizimlə birgə) 4 nəfərin həmmüəllifi olduğu məqalənin xarici jurnalda çıxdığını qeyd edib. Müəyyənlik üçün qeyd edim ki, Ə.Sadıqov bu məqalədə sonuncu 4-cü müəllifdir və yəqin ki, bu jurnalın adını da bilmir.

"O, istənilən vəchlə bu məsələni Ali Attestasiya Komissiyasının üzərinə atmağa çalışırdı"

- AMEA professoru statusunun ləğvi niyə baş verdi?

- AMEA professoru statusu guya ki, AAK-ın verdiyi professor elmi adı ilə müqayisə edildiyi üçün ləğv edilib. Lakin yenə də təkrar etmək istəyirəm ki, bu məsələ ilə AAK-ın professor elmi adı tamamilə başqa təyinatlıdır. Belə ki, AMEA professoru nizamnaməsinin tərtibində mən özüm də yaxından iştirak etmişəm və lazım olsa, mən onu ictimaiyyətə təqdim edə bilərəm.

- Məlumatlara görə, bir sıra hallarda Ali Attestasiya Komissiyası AMEA-nın işlərinə lüzumsuz müdaxilələr edir. Bunu siz də müşahidə edirsinizmi?

- Bəli, AAK bu məsələdə çox fəal rol oynayıb. Lakin qeyd etmək istəyirəm ki, AAK-ın professor adının verilməsi elmi fəaliyyətə görə olmaya da bilər. Məsələn, professor elmi adının elmi fəaliyyətə görə verilməsinə aid olan 3.1 və ya 3.6 bəndində iddiaçının elmi dərəcə almış tələbələrinin olması şərt kimi qoyulur. Dünya təcrübəsində isə professor elmi adı əsasən elmi işlərə görə verilir. Bir də mən son zamanlar AAK-ın dissertasiya işləri ilə bağlı qəbul etdiyi süründürməçilik qərarına qarşı çıxmış bütün dissertantları dəstəkləyirəm və bunu dəstəkləmiş bütün həmkarlarıma minnətdarlığımı bildirirəm.

- Digər tərəfdən, qeyd etdiniz ki, sizin 25 nəfərlik sıranızda Azərbaycan Respublikasının 50 yaşa qədər olan mütəxəssisləri təmsil olunurlar və onların sıralarında kifayət qədər elmi nüfuzlu insanlar da var. Hətta AMEA professorları sıralarında bir millət vəkilinin də olduğunu bildirirsiniz. Bu haqda nə demək istəyirsiniz?

- Bizim 2019-cu ildə ikinci dəfə keçirilən AMEA professorları müsabiqəsindən daha 13 nəfər keçərək sıralarımızı 25 nəfərə çatdırdılar. Onların sıralarında millət vəkili Qənirə Paşayeva da olub. Digərinin adını isə artıq qeyd etmişəm.

- Siz özünüz həm də Rusiya Xalqlar Dostluğu Universitetinin nəzdində fəaliyyət göstərən S.M.Nikolski adına Riyaziyyat İnstitutunun baş elmi işçisisiniz. Burada fundamental elmi tədqiqat sahəsində nə kimi işlər görülür?

- Qeyd etdiyim kimi, Rusiya Xalqlar Dostluğu Universitetinin nəzdində fəaliyyət göstərən S.M.Nikolski adına Riyaziyyat İnstitutunun xarici araşdırmaçısı kimi baş elmi işçisiyəm. Burada həm fundamental, həm də tətbiqi baxımdan əhəmiyyətli işlər görülür və mənim də bu institutun fundamental sahələrdə çalışan əməkdaşları ilə sıx əlaqəm mövcuddur.

- Çox zaman eşidirik ki, dövlətin elmə yüksək məbləğdə vəsait ayırmasına baxmayaraq, o vəsaitin elmə, elmi ixtiralara, tədqiqatlara xərclənməsinin qarşısı AMEA-dakı müəyyən qüvvələr tərəfindən alınır. Bu həqiqətdirmi?

- Məncə, AMEA-da alınmış elmi ixtiralara, tədqiqatlara AMEA tərəfindən maddi dəstək verilir və verilməkdə davam edir. Dünya elmi araşdırmaları sübut edir ki, doğrudan da əsas fundamental tədqiqat sahələri maliyyələşdirilir. Buna parlaq misal olaraq Gürcüstan Respublikasını və Rusiya Federasiyasını misal göstərmək olar.

AMEA PKŞ-nin sədri kimi AMEA rəhbərliyindən xahiş etmək istərdim ki, bu məsələyə yenidən baxsın.

- Müasir dövrümüzdə sizin kimi tanınmış riyaziyyat alimləri olsa da, nədənsə, onların elmi nəticələrinin iqtisadiyyat, texnologiya və digər sahələrdə tətbiqi ləngiyir. Bu nə ilə bağlıdır?

- Əvvala qeyd etmək istəyirəm ki, riyaziyyat sahəsi əsasən nəzəri sahədir. Lakin bu sözlərlə mən özümü sığortalamaq istəmirəm. Biz hazırda tibb sahəsində onkoloji proseslərin riyazi modelləşdirilməsi və iqtisadiyyatın kəsir tərtibli riyazi modelləşdirilməsi üzərində qrup şəklində fəaliyyət göstəririk. Müasir dünyanın yeni çağırışlarına uyğun olaraq çalışırıq ki, bu sahədə qazandığımız müəyyən təcrübəni digər sahələrdə də tətbiqini tapaq. Bu çatışmazlıq əsasən müxtəlif sahələrdə fəaliyyət göstərən alimlərin çox çətinliklə bir elmi fikrə gəlməsi ilə əlaqədardır. Lakin inanıram ki, bu problem yaxın 10 il ərzində əhəmiyyətli dərəcədə aradan qaldırılacaq.

- AAK-ın doktorantlarla və dissertantlarla bağlı çıxardığı 13 dekabr qərarına münasibətiniz necədir? AAK niyə o qərarı dəyişmək istəmir?

- Yuxarıda qeyd etdiyim kimi, AAK-ın bu qərarına münasibətim mənfidir. Mən AAK kimi digər təşkilatların işinə qarışmaq istəmirəm, lakin bu qərara münasibət bildirməyi özümə bir borc bilirəm. Mən AMEA-nın professoru İdris Abbasov və digər professor-müəllim heyətinin fikrini tam dəstəkləyirəm.

İradə SARIYEVA

P.S. Müraciət edərsə, qarşı tərəfin də fikirlərini dərc edə bilərik.

Polis bu dəfə Lənkəran məktəbində "Narkomaniyaya yox" dedi

DİN Mətbuat Xidmətinin Lənkəran regional qrupundan verilən məlumata görə, Lənkəran Şəhər Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə şəhər 6 saylı tam orta məktəb-liseydə "Narkomaniyaya yox deyək" mövzusunda görüş keçirilib.

Tədbirdə Lənkəran Şəhər Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Fəqan Azadəliyev, Şəhər Təhsil Şöbəsinin müdiri Aslan İbrahimov, ictimaiyyət nümayəndələri, məktəbin pedaqoji kollektivi, şagirdlər və valideynlər iştirak edib.

Lənkəran ŞRPŞ-nin rəisi, polis polkovniki F.Azadəliyev çıxış edərək əsrin bəlası olan narkomaniyaya qarşı mübarizəni təmin etmək məqsədilə belə tədbirlərin keçirilməsinin mühüm əhəmiyyətə malik olduğunu bildirib. Şöbə rəisi deyib ki, hər kəs gənc nəslin sağlam böyüməsinə, valideynlərinin etimadını doğrultmasına, Vətənə layiqli övlad kimi yetişməsinə çalışmalıdır. Lakin bu gün narkomaniyaya meyl edən yeniyetmə və gənclərə hələ də rast gəlinməsi təəssüf hissilə xatırlanıb. Qeyd olunub ki, məhz bu səbəbdən məktəblərdə, təlim-tərbiyə müəssisələrində, ayrı-ayrı kollektivlərdə izahat və maarifləndirmə işləri müntəzəm aparılmalı, hər bir şagird təhsilə və idmana diqqətli yanaşmalı, vətənpərvər olmalı, valideynlərinin və dövlətin onlara bəslədiyi etimadı doğrultmağa çalışmalıdır.

Sonra F.Azadəliyev narkomaniya əleyhinə aparılan işlərin hər zaman diqqət mərkəzində olduğunu, bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirildiyini nəzərə çatdırıb. Qeyd edib ki, Daxili İşlər Nazirliyinin və yerli polis orqanlarının əməkdaşları bu istiqamətdə ciddi mübarizə tədbirləri görməklə yanaşı, həm də yeniyetmə və gənclərlə vaxtaşırı maarifləndirici görüşlər də keçirirlər.

Daha sonra çıxış edənlər polis əməkdaşları tərəfindən məktəblilərlə belə görüşlərin keçirilməsini yüksək qiymətləndirib, şagirdləri bu həssas mövzuya diqqətlə yanaşmağa, verilən dəyərli tövsiyələrə əməl etməyə çağırıblar.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

Azərbaycanda 16 pasportlaşmamış avtovağzal bağlanmaq təhlükəsi ilə üz-üzə...

Ölkədə pasportlaşmamış avtovağzallar sərnişinlərin həyatı üçün təhlükəlidir. Bu barədə "Trend"ə açıqlamasında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) mətbuat xidmətinin rəhbəri Nuridə Allahyarova bildirib.

Onun sözlərinə görə, 16 pasportlaşmamış avtovağzal mövcuddur: "Avtovağzallar və avtostansiyalar haqqında əsasnamələr mövcuddur və bu əsanaməyə uyğun olaraq Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) ölkədə fəaliyyət göstərən və müstəqil olan avtovağzalların hər birinə rəsmi fəaliyyət göstərmək üçün pasport təqdim edir. Bu sənəd avtobusların dayanması, giriş-çıxış nöqtəsinin təyin olunması və avtovağzal ərazisində olan kassaların qanuni fəaliyyət göstərməsi üçün nəzərdə tutulub. Təbii ki, bu pasportlarda müəyyən kriteriyalar var. Avtovağzallar və avtostansiya kompleksləri həmin o əsasnaməyə uyğun şəkildə infrastrukturla təmin olunmalı, vətəndaşlara hər cür şərait yaradılmalı, kassadan biletlərin alınması təmin olunmalı və bu kimi bir çox işlər görülməlidir".

N.Allahyarova qeyd edib ki, ölkədəki 56 avtovağzal və avtostansiya kompleksindən 16-sı pasportlarla təmin olunmayıb: "Səbəb isə odur ki, həmin avtovağzallar pasportlar əldə etməyiblər. Buna görə də, DANX olaraq biz həmin avtovağzal və avtostansiya komplekslərinə bildiririk ki, onlar bu şəkildə davam edərlərsə, cərimələnəcəklər. İlkin olaraq bu cərimə 1500 manat olacaq, ancaq onlar bilsinlər ki, bununla işlər yekunlaşmayacaq. Cərimədən sonra da rəsmi sənəd əldə etməsələr, fəaliyyətlərinə xitam veriləcək".

Mətbuat xidmətinin rəhbəri əlavə edib ki, hazırda sözügedən 16 kompleksin 10-da pasportun təmin olunması ilə bağlı işlər görülür, artıq danışıqlar başlanıb. Digər 6 avtovağzala isə ciddi xəbərdarlıq olunub.

"Torqovıda" pulqabısını itirmişdi, polis və vicdanlı vətəndaş yardımçı oldu...

Vətəndaşların polisə olan müraciətləri təkcə cinayətlərlə, şikayətlərlə bağlı deyil. Onlar həm də polisə inanır və etibar edirlər.

Polis-vətəndaş həmrəyliyinin daha bir təzahürü bu günlərdə baş verib. Belə ki, fevralın 12-də DİN-in "102" Zəng Mərkəzinə müraciət edən vətəndaş həmin gün Səbail rayonu ərazisində pulqabısını itirdiyini bildirib.

Müraciətlə əlaqədar Bakı şəhər sakini Nüsrət Sultanov Səbail RPİ-nin 9-cu Polis Bölməsinə dəvət edilib. O, paytaxtın "Torqovı" kimi tanınan "Nizami" küçəsində içərisində bank kartları, sənədləri və 980 manat pulu olan pulqabısını naməlum şəraitdə itirdiyini deyib.

Polis əməkdaşları tərəfindən müvafiq tədbirlərə başlanıb.

Həmin gün axşam saatlarında DİN-in "102" Zəng Mərkəzinə müraciət edən digər bir vətəndaş isə yerdən pulqabı tapdığını və sahibinə qaytarılması üçün polisə təhvil vermək istədiyini bildirib.

Həmin şəxs - Qaradağ rayonunun Lökbatan qəsəbəsində yaşayan Həsən Həsənov da 9-cu Polis Bölməsinə dəvət edilib. O, içərisində bank kartları, sənədlər və pul olan pulqabını polisə təhvil verib.

Araşdırma zamanı məlum olub ki, bu, N.Sultanovun itirdiyi, ona məxsus sənədlər və qeyd edilən məbləğ olan pulqabıdır.

H.Həsənov Nizami küçəsində olarkən həmin pulqabını yerdən tapdığını, içində sənədlər olduğundan onu sahibinə qaytarmaq üçün ancaq polisə etibar etdiyini qeyd edib.

Hər iki şəxs 9-cu Polis Bölməsinə dəvət edilib, polis əməkdaşlarının iştirakı ilə həmin pulqabı sahibinə qaytarılıb.

Nüsrət Sultanov və Həsən Həsənov göstərdikləri bu köməkliyə görə polis əməkdaşlarına təşəkkürlərini bildiriblər. Azərbaycan polisinin etimad ünvanı olduğunu, ona güvəndiklərini qeyd ediblər.

Polisin törədildiyi gün "isti izlərlə" açdığı 31 cinayət...

Fevralın 13-dən 14-dək Respublikanın daxili işlər orqanları gün ərzində törədilmiş 31 cinayətin üstünü "isti izlər"lə açıb.

Əvvəlki dövrlərdən bağlı qalmış 37 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 52 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 30 nəfər saxlanaraq aidiyyəti üzrə təhvil verilib.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 20, qanunsuz saxlanan silah-sursatla bağlı 1 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 43 nəfər saxlanıb.

Natiq CAVADOV
DİN Mətbuat Xidmətinin əməkdaşı

İsmayıllı sakinlərindən qanunsuz saxladıqları ov tüfəngləri götürülüb

İsmayıllı Rayon Polis Şöbəsinin əməkdaşları qanunsuz saxlanan silah-sursatın aşkar edilərək götürülməsi məqsədilə uğurlu əməliyyat tədbirləri keçirib.

DİN Mətbuat Xidmətinin Şəki regional qrupundan verilən məlumata görə, polis əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri ilə rayonun Minkə kənd sakini Səbuhi Həsənovdan "İJ-18", Aşağı Zərnava kənd sakinləri Zinhar Allahverdiyevdən "İJ", Qədir Adıgözəlovdan "Tula", Elçin Pənahovdan "TOZ-63" , Yenikənd kənd sakinləri Bəxtiyar və Sədri Bəbirovların hərəsindən 1 ədəd "TOZ-63" markalı müvafiq sənədləri olmayan, qanunsuz olaraq saxladıqları ov tüfəngləri aşkar edilərək götürülüb.

Həmin şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə protokol tərtib olunaraq baxılması üçün İsmayıllı Rayon Məhkəməsinə göndərilib.

№ 28 (4159) ■ Qiyməti: **40 qəpik**

BAKI XƏBƏR

15-17 FEVRAL 2020-ci il

www.baki-xeber.com

Küldən yetişdirilən brilyant

ABŞ-ın Texas ştatında fəaliyyət göstərən bir startap şirkəti sevdiklərini əzizləmək istəyənlərə unikal bir yol təqdim edir.

Şirkət yandırılan cəsədlərin küllərini brilyanta çevirir. İnsan, hətta ev heyvanlarının külü laboratoriyada yetişən almazlar üçün başlanğıc materialdır. "Bilirsiniz, mənim həyatımda 4 il yalnız "Kloye" var idi və o, həyatımı tamamilə dəyişdi", - deyə, Dori Herman bildirir. Kloyeni götürmək qərarı Dori Hermanın it həvəskarları cəmiyyətinə daxil olmasına yol açdıb və nəticədə bugünkü xeyriyyə işinə ilham verib. Buna görə də "Kloye" öldükdən sonra Dori Herman onun külünün bir hissəsinin brilyanta çevrilməsinə qərar verib. "Ev heyvanınızın xatirəsini gözəl bir şəkildə qorumaq üçün onların küllərini rəfimdə saxlamaq əvəzinə, bundan yaxşı yol yoxdur". "Amerikanın səsi" bildirir ki, bu brilyantları "Eterneva" adlı startap laboratoriyasında yetişdirmək mümkündür. "Eterneva"nın icraedici direktoru Adel Arçer: "Biz karbonu küldən və ya tükdən ayırır, bundan sonra saç və ya xəzdən də brilyant yetişdiririk." Laboratoriyada yetişdirilən brilyantların kimyəvi tərkibi təbii şəraitdə yetişən brilyantlarla eynidir və eyni təmizlikdədir. Adel Arçer bundan əvvəl ən yaxın dostu vəfat edəndə də brilyant istehsal edən laboratoriyada işləmişdi. "Treysi mənim üçün ikinci ana kimi idi. O, mənim həyatımdakı ən yaxın insanlardan biri olduğu üçün onun külünün bir hissəsini aldım. Bir brilyant mütəxəssisi ilə məsləhətləşdim və o mənə `bu küldə karbon var. Edə biləcəyimiz şey Treysinin külündən karbonu çıxartmaqdır və ondan sonra sənə həmin karbondan bir almaz yetişdirə biləsən dedi", - deyə, Adel Arçer bildirir. Laboratoriyada yetişdirilən brilyant əvvəlcə almaz hissəsinə bənzəyir və onun yetişməsi üçün 8 ay gərəkdir. "Karbonu kiminsə külündən çıxarırıq. Ümumi karbonla qarışdırırıq. Biz bir karbon diski yaradır və zaman keçdikcə həmin karbon hissəciyinin üstündə inkişaf etməyə başlayır və emal olunmamış bir brilyanta çevrilir". Nəticədə isə fərdi bir zərgərlik parçası əmələ gəlir. Dori Herman: "Şəxsən mənim üçün bu, ona baxıb, sanki burada olmuş kimi gülümsəmək demkədir. Bu, kədərli deyil, Bu, "Kloye"nin burada olması, sanki daim yaşadığı kimi bir şeydir". Bəziləri üçün bu duyğusal dəyərlərin qiyməti yoxdur.

Hakerlərin hücum zamanı istifadə etdiyi məşhur brend adları...

"Check Point" şirkətinin mütəxəssisləri hakerlərin fişinq hücumlarında ən çox istifadə etdiyi brendlərin siyahısını açıqlayıb.

"Ted.az" bildirir ki, hakerlər məşhur brendlər vasitəsilə insanların fərdi məlumatlarını daha rahat əldə ediblər. Hakerlərin fişinq hücumlarında ən çox istifadə etdiyi brendlər bunlardır: "Feysbuk (ümumi fişinq hücumunun 18%-i). "Yahoo" (ümumi fişinq hücumunun 10%-i). "Netflix" (ümumi fişinq hücumunun 5%-i). "PayPal" (ümumi fişinq hücumunun 5%-i). "Microsoft" (ümumi fişinq hücumunun 3%-i). "Spotify" (ümumi fişinq hücumunun 3%-i). "Apple" (ümumi fişinq hücumunun 2%-i). "Google" (ümumi fişinq hücumunun 2%-i). "Chase" (ümumi fişinq hücumunun 2%-i). "Ray-Ban" (ümumi fişinq hücumunun 2%-i) və s. HƏMÇİNİN OXU: Azərbaycanın bu bankına qarşı fişinq hücumu başladılıb. Brendlərdən istifadə hücumun hansı formada aparılmasına görə dəyişib. Belə ki, fişinq hücumları elektron poçt üzərindən aparıldıqda daha çox "Yahoo"!, "Rbs" (Ray-Ban Sunglasses), "Microsoft", "DropBox"a müraciət olunub. Saytlar üzərindən edilən hücumlarda Spotify, Microsoft, PayPal və Feysbuk, mobil cihazlar vasitəsilə edilən hücumlarda isə "Chase Mobile Banking", "Feysbuk", "Apple" və "PayPal" tətbiqlərindən istifadə edilib.

"Azercell" təcrübəsini SABAH qrupları ilə bölüşüb

"Azercell Telekom" MMC Təhsil Nazirliyinin SABAH qruplarının "Qış Məktəbi" layihəsi çərçivəsində master-klasslar təşkil edib

Ölkənin mobil rabitə bazarının lideri "Azercell Telekom" MMC Azərbaycan Respublikası Təhsil Nazirliyinin SABAH Karyera Akademiyası tərəfindən təşkil edilən "Qış Məktəbi" layihəsində iştirak edib.

11-13 fevral 2020-ci il tarixlərində Şamaxı şəhərində baş tutan layihə çərçivəsində "Azercell" Akademiyasının təlimçiləri Vahidə Orucova və Könül Məmmədova tələbələrə "Təqdimat bacarıqları" və "Öz brendini yarat" kimi aktual mövzuları əhatə edən master-klasslar keçiblər. Qeyd etmək lazımdır ki, "Qış məktəbi" layihəsində "Azercell"in iştirakı artıq xoş bir ənənəyə çevrilib. Belə ki, bu layihə çərçivəsində 2017-ci ildən etibarən hər il şirkətin peşəkar əməkdaşları təcrübə və biliklərini tələbələrlə bölüşürək, onların peşəkar və şəxsi inkişafına böyük töhfə verirlər. Təlimlərin keçirilməsində əsas məqsəd tələbələrə uğurlu karyera qurmaq üçün zəruri olan fundamental bacarıqların aşılanmasıdır. Təhsil Nazirliyi SABAH qrupları ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, tədrisin keyfiyyətinin yüksəldilməsi,savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsi məqsədilə yaradılmış, ali təhsil sistemində innovativ və aparıcı bir layihədir. Qeyd etmək lazımdır ki, 2017-ci ildə "Azercell Telekom" MMC və Təhsil Nazirliyinin SABAH qrupları arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən şirkət tərəfindən son 3 il ərzində "Sabah" qruplarının 30 tələbəsinə aylıq təqaüd ayrılıb. Həmçinin, SABAH qruplarının 20-dən artıq tələbəsi şirkətdə təcrübə keçmək fürsəti qazanıb ki, onlardan 1-i hazırda artıq "Azercell" işçisidir. Bu il isə "Azercell Təqaüdçüsü" fəxri adına layiq görülən 28 tələbədən 9-u "SABAH" qrupları tələbələri arasından seçilib. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.



Qoç - İşgüzar məsələlərin həlli üçün uğurlu gündür. Yaşam potensialının səviyyəsi yüksəkdir, enerjiniz və ruhi qüvvəniz çoxdur. Uğura nail olmaq üçün bütün komponentlər var. Yeni, çətin və mürəkkəb işlər peyda olur.

Buğa - İşgüzar müstəvidə çətinliklər ola bilər. Gəlirli sifvarişi əldən buraxmayın, ciddi maliyyə itkilərinə səbəb olacaq addımlar atmayın. İşdəki münasibətlərdə sərinlik yarana bilər.

Əkizlər - Yaşam potensialının səviyyəsi yüksək olmasa da, aktiv və qətiyyətli olun. Xoşagəlməz situasiyanın yaranmasının qarşısını almaq istəyirsinizsə, ehtiyatlı davranın, sözlərinizdə səlis olun.



Xərçəng - Bütün fikrinizi şəxsi problemlərin həllinə yönəltsəniz, mühüm məsələ diqqətinizdən yayına bilər. Emosiyalar hərəkətlərinizə və qərarlarınıza təsir etməsin. Bunu hiss edən kimi dayanın.

Şir - Səbrli olun, təmkinli davranın. Hadisələrin mövcud axarına süni müdaxilələrin nəticələrini əvvəlcədən təxminləməyə çalışın. İşdə tənbəllik etməyin. Bu gün istirahət və əyləncə zamanı deyil.

Qız - Yaradıcı və yaşam potensialınız yüksəkdir. Peşəkar fəaliyyətdə inadkar, qətiyyətli olun. Sevdiyiniz insanın qəlbini qırmayın. Səy və vaxtınızı əsirgəməsəniz, xüsusi əhəmiyyətə malik işdə uğura nail ola bilərsiniz.



Tərəzi - Romantik hisslər, əsassız istəklər və xülyalara aldanmayın. Macəra və sərgüzəştlər aramayın. Günün ilk yarısı sizdən mühüm qərarlar tələb edə bilər. Bu qərarlar müəyyən dərəcədə şəxsi həyatınızla bağlı olacaq.

Əqrəb - Problemi həll edin, kimlərinsə yaşamını, davranışını və ya mövqeyini dəyişməyə can atmayın. Maraqlı informasiya arayın, sorğulara cavab verin. Şəxsi münasibətlərdə konkret yardım və qayğı sözlərdən daha üstündür.

Oxatan - Problemlər və çətinliklər sevdiyiniz insanla, ailə üzvləri ilə münasibətlərdə problem yaratmamalıdır. Əlavə işə başlamaq, sifariş götürmək olar. Yaxın ətrafınızdakı insanlardan birinin problemlərinin həllində yardımçı olun.

Oğlaq - Müəyyən mövzunun sizdən planlaşdırdığınızdan daha çox vaxt və səy tələb edə bilər. Şərtlərin tələb etdiyi seçim sizi yeni, maraqlı yola apardığından adət etdiyiniz və sevdiyiniz bəzi ünsürlərdən imtina etməli olacaqsınız.

Dolça - Xarici şərtlər və proseslər sizi daimi gərginlikdə saxlaya bilərlər. Səhhətinizin qeydinə qalın. Kiçik ağrıların orqanizm üçün ciddi problemə çevrilməsinə imkan verməyin. Tək çalışmaq üçün əlverişli gündür.

Balıqlar - Yaxın ətrafınızdakı insanlardan biri sizdən kömək gözləyir. Dostunuzun yardımı isə sizə konkret fayda verməsə belə, həssas olun. Günün ikinci yarısındakı tanışlıq ciddi deyil. Ailə üzvlərinin qayğısına qalın.

Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb

Stansiyada dalaşan siçanların fotosu qalib oldu

Bu şəkli çəkmək üçün 5 gün metroda yerdə gözlədim. "CNN" xəbər verir ki, bu sözləri çəkdiyi "fotoya görə mükafatlandırılan fotoqraf Sam Rowley" söyləyib.

Sam Rowley-in "Stansiya davası" adı ilə təqdim etdiyi foto 48 min şəkil arasında birinci seçilib və "Natural History Museum" tərəfindən mükafatlandırılıb. Fotoqraf bildirib ki, bu anı tutmaq üçün xeyli əziyyət çəkib. Fotoqrafın dediyinə görə, o şəkli çəkmək üçün 1 həftəyə yaxın vaxt sərf edib və platformada uzanıb.

"Bu, tamamilə şans işi olsa da, həmin kadrları alındırmaq üçün 5 gün əziyyət çəkdim. Amma zəhmətim yerdə qalmadı", - fotoqraf söyləyib. Qeyd edək ki, London metrosunda çəkilən kadrda iki siçanın çörək qırıntılarına görə birbiri ilə dalaşması əks olunub. Foto 28 min insan tərəfindən bəyənilib.

Hazırladı: Ramil QULİYEV

Elan

Şəki şəhər sakini Kərimov Kərim Nurəddin oğlunun adına verilmiş 404013002401-10301 saylı reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır.

Hüseynov Hüseynağa Məhəddin oğluna Daxili İşlər Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır.

(Bazar və bazar ertəsindən başqa).

«BZ»-də çap olunur.

Sifariş: №2514 *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.